www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 may 2015-ci il Cümə № 104 (6132) Qiyməti 40 qəpik

**Xəbər**

## Kürdəxanıda qorxu filmi kim intiharlar

yazısı səh.10-da

**Gündəm**

### Bu gün iqtidar-müxalifət görüşü keçiriləcək



Dəvətlilərin əksəriyyəti tədbirdə iştirak edəcək

yazısı səh.6-da

### SOCAR 750 min dollar ittihamına cavab verdi

yazısı səh.9-da

### Müsavat başqanı Arif Hacılı önəmli açıqlamalar verdi

yazısı səh.8-də

### Şeyxin idarəsi Ramazanla bağlı fətva hazırlayır

yazısı səh.7-də

### Əli Həsənov dünyanın xəbər nəhənglərinin rəhbərləri ilə görüşdü

yazısı səh.7-də

### Yəhudi icmasının liderindən "Azəriqaz"a antisemitizm ittihamı

yazısı səh.7-də

### Riqa sammiti Qarabağ danışıqlarına yeni hərəkətlilik verə bilər

yazısı səh.11-də

### Ekspertlər həbslərin niyə Avropa Oyunları ərəfəsində aparılmasından danışdılar

yazısı səh.12-də

### Xələc türməsinə qara maskalılar yeridildi

yazısı səh.13-də

### Problemli kreditlər kritik həddə çatıb

yazısı səh.7-də

### Bakı bazarlarının alıcıları: "Kasıbıkı yaydır…"

yazısı səh.15-də

## İqtidar sərhədlərə nəzarəti daha da gücləndirib

# "OLİQARXGEYT" İŞİNDƏ YENİ SENSASİON MƏLUMATLAR

Hava limanındakı "xüsusi nəzarət qrupu"na ölkədən çıxmaq istəyən biznesmenləri, onların yaxın adamlarını yoxlamaq, sorğu-suala tutmaq, hətta ölkədən buraxmamaq səlahiyyəti verilib; üç gömrük rəisinin İşdən çıxarılmasına səbəb nədir?




yazısı səh.9-da

## Azərbaycan və Türkiyəyə ortaq İŞİD təhlükəsi

Patruşevin Bakı səfəri ilə NATO-nun Antalya sammitini birləşdirən tək mövzu; **ekspert:** "Radikal güclər Azərbaycanı öz hədəflərində saxlayır…"

yazısı səh.4-də



Bəxtiyar Sadıqov

### "Azərbaycan"ın baş redaktorundan "Yeni Müsavat"a qarşı anlamsız hücum

yazısı səh.4-də



Rəşad Məmmədov

### Bayraq İdarəsinin sabiq rəisini MTN həbs etdi

yazısı səh.5-də



İvan Volınkin

### Şuşanın işğalını Rusiya səfiri araqla qeyd edib

yazısı səh.7-də

# 15 may 2015



## İlham Əliyev və Vyetnam prezidenti birgə bəyanatla çıxış ediblər

**Vyetnam Sosialist Respublikasının prezidenti Çıonq Tan Şanq Azərbaycana rəsmi səfərə gəlib. Mayın 14-də Azərbaycan prezidenti İlham Əliyevin və Çıonq Tan Şanqın iştirakı ilə Azərbaycan-Vyetnam sənədlərinin imzalanması mərasimi olub. Sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikasının prezidenti Çıonq Tan Şanq mətbuata birgə bəyanatlarla çıxış ediblər. İki ölkə arasında iqtisadi əməkdaşlıqdan söz açan İlham Əliyev deyib ki, ticarət dövriyyəsinin artırılması üçün yaxşı imkanlar var.**

"Qarşılıqlı investisiya qoyuluşu məsələləri müzakirə edildi. Bu sahədə də həm Vyetnam, həm Azərbaycan şirkətlərinin artıq təcrübəsi vardır. Bu gün keçiriləcək biznes forumda əminəm ki, iki ölkənin biznes qurumları da bu məsələ ilə bağlı öz sözünü deyəcəklər. Bir sözlə, iqtisadi və ticarət əlaqələrimiz bizim ümumi əməkdaşlığa çox müsbət təsir göstərir və gözəl perspektivlər də vardır", - o bildirib.

**Vyetnam prezidenti deyib ki, Azərbaycana səfər etməkdən çox məmnundur:** "Azərbaycan çox gözəl ölkədir, qədim tarixə, mədəniyyətə malikdir. Biz bilirik ki, bu ölkənin çox zəngin potensialı var və Azərbaycan bizə çox dost ölkədir. Bizə göstərilən səmimi qəbula və ehtirama görə cənab prezident, Sizə, azərbaycanlı dostlarımıza minnətdarıq. Vyetnam nümayəndə heyətinə və mənə yüksək qonaqpərvərlik göstərilmişdir. Bizim ölkələrimiz arasındakı münasibətlər inkişaf edir».

## Xədicə İsmayılın həbs müddəti üç ay da uzadıldı

**Mayın 14-də Bakının Nəsimi Rayon Məhkəməsi Baş Prokurorluğun jurnalist Xədicə İsmayılın həbs müddətinin uzadılması haqqında təqdimatına baxıb. Məhkəmə təqdimatı təmin edib və jurnalistin həbs müddətini avqustun 24-nə qədər uzadıb. Bu barədə "Turan"a vəkil Fariz Namazlı məlumat verib.**

İstintaq X.İsmayılın həbsdə saxlanılmasını əvvəlki fikirləri ilə əsaslandırıb. Prokurorluq hesab edir ki, İsmayıl şahidlərə təsir göstərə və istintaqdan gizlənə bilər.

Vəkil dünənki məhkəmə qərarından apelyasiya vermək niyyətində olduğunu bildirib. Bundan başqa, artıq qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi haqqında vəsatət qaldırılıb. Vəsatətə mayın 15-də baxılacaq.

Xatırladaq ki, bununla İsmayılın həbs müddəti üçüncü dəfədir ki, uzadılır.

Xədicə İsmayıl 2014-cü il dekabrın 5-də jurnalist Tural Mustafayevi özünü öldürmə həddinə çatdırmaq ittihamı ilə həbs edilib. Lakin fevralın 13-də prokurorluq 179.3.2 (külli məbləğdə mənimsəmə), 192.2.2-ci (qanunsuz sahibkarlıq) və 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələrlə yeni ittiham irəli sürüb.

## Məhkəmə-Hüquq Şurası bir neçə hakimi cəzalandırdı

**Məhkəmə-Hüquq Şurasının (MHŞ) yenilənmiş tərkibdə ilk iclası keçirilib. Şuradan APA-ya verilən məlumata görə, iclasda bir sıra təşkilati məsələlərə baxılıb, yeni şura üzvü təyin edilən şəxslərə xidməti vəsiqələr təqdim olunub.**

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədov şuranın fəaliyyət göstərdiyi 10 il ərzində məhkəmə sisteminin təkmilləşdirilməsi, hakimlərin şəffaf seçiminin və tədrisinin təşkili, onların fəaliyyətinin prinsipial qiymətləndirilməsi, qanun pozuntusu, süründürməçilik və digər neqativ halların aradan qaldırılması üzrə ardıcıl tədbirlər haqda danışıb.

İclasda Hakimlərin Seçki Komitəsi üzvlərinin səlahiyyət müddətlərinin bitməsi ilə əlaqədar komitənin formalaşdırılması üçün yuxarı məhkəmələr, prokurorluq və vəkillər kollegiyası tərəfindən irəli sürülən və digər namizədlər müzakirə olunaraq onların sırasından komitə üzvləri seçiliblər. İclasda hakimlər barəsində intizam icraatlarına baxılaraq qanunvericiliyin tələblərini pozduqlarına görə Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri Məhəmməd Əkbərova, həmin məhkəmənin hakimi Ramil Həsənova, Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Mübariz Məmmədova töhmət verilib, 1 saylı Bakı İnzibati-iqtisadi Məhkəməsinin hakimi İntizar Bayramovaya və Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Elnur Nuriyevə irad tutulub, habelə bir hakim barədə intizam icraatı başlanılıb.

# Cahangir Hacıyevə bağlı futbol klubları dağılır



**Cahangir Hacıyevin Azərbaycan Beynəlxalq Bank rəhbərliyindən getməsindən sonra bankirin pul ayırdığı futbol klubları maliyyə çətinliyi ilə üzləşiblər.**

AzNews.az-a daxil olan məlumata görə, məhz C.Hacıyevin ayırdığı maliyyə hesabına ayaqda qalan 2 klub - "İnter" və "Simurq"un maliyyə ucbatından mövsümün sonuna kimi bağlanacağı gözlənilir. Yayılan məlumatlarda deyilir ki, hər iki klubda futbolçular 4-5 aydır maaşlarını ala bilmir. Onlar bu barədə FIFA-ya şikayət edəcəklərini bəyan ediblər.

Xatırladaq ki, mayın 1-də keçirilən "Simurq" - "İnter" görüşündən əvvəl meydan sahibinin oyunçuları matçın start fitindən sonra oturaraq rəhbərliyə öz etirazlarını bildirmişdilər.

Oyundan sonra klubun rəsmi saytı açıqlama yayaraq futbolçuların bu hərəkətini dəstəkləmiş, sponsoru - ABB-nı günahlandırmışdı. "Simurq" klubunda keçirilən toplantı zamanı futbolçulara bildirilib ki, onların sponsorla bağlı problemləri yaranıb, mövsümün sonuna qədər maaşlar verilməyəcək. Futbolçulara o da çatdırılıb ki, klubu tərk etmək istəyənə problem yaradılmayacaq. Artıq 4-5 futbolçu klubla yollarını ayırıb.

"İnter"də də vəziyyət fərqli deyil. Mövsümün potensial gümüş mükafatçısı maaş probleminə görə UEFA Avropa Liqasından da kənarda qala bilər. Belə ki, futbolçular FIFA-ya şikayət etməkdə israrlıdırlar. Üstəlik, maliyyə problemi klubun lisenziya almasını da əngəlləyə bilər.



## AXCP üzvünə 6 il həbs verildi

**Lənkəran Ağır Cinayətlər Məhkəməsində narkotik vasitələrin qanunsuz dövriyyəsində təqsirləndirilən Murad Ədilovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Virtualaz.org saytının əldə etdiyi məlumata görə, prosesdə hökm oxunub. Məhkəmənin hökmü ilə M.Ədilov 6 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Sabirabad rayonu Xəlfəli kənd sakini, AXCP üzvü Murad Ədilov ötən il avqust ayının 11-də tutulub.

M.Ədilov AXCP mətbuat xidmətinin rəhbəri Natiq Ədilovun qardaşıdır.

## Türkiyə Azərbaycanı dollardan imtinaya çağırdı

**Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin manatla və ya lirə ilə aparılması daha faydalı olardı.**

Virtualaz.org bildirir ki, bunu Türkiyə Mərkəzi Bankının sədr müavini Necati Şahin deyib.

"Alqı-satqının üçüncü ölkənin valyutasından asılı olmadan, tərəflərin öz milli valyutası ilə aparılması istər Azərbaycanın, istərsə də Türkiyənin dolların oynaması ilə bağlı risklərini minimuma endirərdi, amma bunu reallaşdırmaq heç də asan deyil", - deyə türk bankir vurğulayıb.

## Kremldən İrəvana Qarabağ şoku

**Mayın 8-də keçirilmiş Avrasiya İttifaqı sammitində Kreml Ermənistandan işğal etdiyi Azərbaycan torpaqlarını geri qaytarmağı tələb edib. ANS PRESS-in məlumatına görə, bu barədə Ermənistanın "Joxovurd" qəzeti yazıb.**

Qəzet bildirib ki, Rusiya hər vəchlə Azərbaycanı Avrasiya İttifaqına cəlb etməyə çalışır. Azərbaycan isə Ermənistanın Rusiyanın dəstəyi ilə işğal etdiyi torpaqları geri qaytarmasını əsas şərt qoyur.

"Dünya neft və qaz bazarlarına təsir etmək üçün yeni rıçaqlar əldə etmək baxımından Azərbaycan Rusiyaya çox lazımdır",- deyə "Joxovurd" vurğulayıb.

Dünən qəzet məsələni dəqiqləşdirmək üçün hətta Ermənistan Xarici İşlər Nazirliyinə müraciət edib.

Amma nazirlikdən qəzetə təhqiramiz cavab verilib.

## İşçi Qrupunun təqdim etdiyi 15 nəfərlik əfv siyahısında kimlər yoxdur?

**Səadət Bənəniyarlı:** "Bəzi siyasilərin günahsız olduğunu deyə bilmərik..."

**Respublika günü münasibətilə əfv sərəncamının veriləcəyi barədə yayılan xəbərlər öz təsdiqini tapmaqdadır. Mayın 10-da əfv gözlənilsə də, olmadı. Artıq bütün ümidlər 28 maya dikilib. Hüquq müdafiəçiləri də nikbindir.**

İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu mətbuata açıqlamasında 15-16 nəfərlik məhbus siyahısını Əfv Komissiyasına təqdim etdiklərini bildirib.

**İşçi Qrupunun digər üzvü Səadət Bənəniyarlı** müsavat.com-a açıqlamasında əfv veriləcəyini təsdiqlədi: "Biz bu qərarı gözləyirik. 10 mayda əfv olmamasının səbəblərini deyə bilmərəm. Əvvəldən deyirdik ki, biz may ayında əfv verilməsini istərdik və gözləyirik. Yəni mesajımız bu şəkildə idi. Hələ də gözləyirik. Belə bir addım atılacağına inanırıq. Çünki çox vacib bir məsələdir. Avropa Oyunları ərəfəsində ölkəmiz adına müsbət keyfiyyətlər verə bilər. Elə məsələlər var ki, qərara mane ola bilər. İşçi Qrupu olaraq, təmaslarımız vətəndaşlarla davam edir. Yəqin ki, bu ayın sonunda iclasımız olacaq".

**Hüquq müdafiəçisi təqdim etdikləri 15 nəfərlik əfv siyahısından da danışdı:** "Əsasən siyasi məhbuslardan ibarət siyahıdır. Siyahıda təqdim etdiyimiz şəxslər azad olsa, böyük uğur olar. Bildiyiniz kimi, əfvdə 4-5 siyasi məhbusun adını görürük. Ona görə də 15 nəfərin azadlığa çıxması çox böyük uğur, müsbət addım olardı. Məhkəmə qərarı olmadığına görə, bəzi siyasilərin günahsız olduğunu deyə bilmərik. Bu şəxs əgər istintaq altındadırsa, məhkəmə qərarı yoxdursa, biz nə edə bilərik? Yalnız onlar barəsində seçilmiş həbs-qətimkan qərarının dəyişdirilməsini xahiş edirik. Onlar sadəcə çox gündəmdə olan şəxslərdir. Amma qanuni yolu olmalıdır".

❑ **Cavanşir ABBASLI**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Azərbaycan-Türkiyə hərbi təlimlərində döyüş atışı mərhələsi keçirilib

**Hərbi əməkdaşlıq haqqında sazişə əsasən Azərbaycan-Türkiyə Silahlı Qüvvələrinin mayın 12-dən başlanan birgə taktiki təlimlərinin növbəti, döyüş atışı mərhələsi keçirilib.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, təlimlərdə iştirak edən bütün qoşun növlərinin döyüş hazırlığının səviyyəsi, tapşırıqların yerinə yetirilməsinin operativliyi və koordinasiya edilməsi, qarşılıqlı fəaliyyətin və uzlaşmanın təşkili, döyüş əməliyyatları zamanı təminatın həyata keçirilməsi, qarşıya qoyulan tapşırıqların icrası, şəxsi heyətin, silah və döyüş texnikasının səmərəli fəaliyyəti yoxlanılıb.

Təlimin ssenarisinə əsasən döyüşdə iştirak edən qüvvələr və yardımçı bölmələri qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra ediblər.

Motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri, helikopterlər döyüş atışlarını və raket buraxılışlarını yüksək dəqiqliklə həyata keçirərək bütün hədəfləri məhv ediblər.

Təlimlər davam edir.

## Zidan "Real Madrid"in baş məşqçisi olacaq

**"Karlo Ançelotti istefa verəndən sonra "Real Madrid"in yeni baş məşqçisinin kim olacağını bilirəm". AzNews.az xəbər verir ki, bu sözləri Fransa yığmasının sabiq futbolçusu Tyerri Anri deyib.**

Onun fikrincə, tezliklə "kral klubu"nun "sükanı arxasına" Zinəddin Zidan keçəcək:"Yadımdadı, eyni vəziyyət "Barselona"da da baş verməmişdi. Heç kim Xosep Qvardiolanın əsas komandanın baş məşqçisi təyin olunacağını gözləmirdi. Ancaq rəhbərlik Pepə güvəndi. O da etimadı doğruldaraq, "Barselona"ya uğurlar qazandırdı. Unutmayaq ki, Zidan da əfsanəvi futbolçu olub və "Real" azarkeşləri onu çox istəyirlər. Odur ki, Ançelottinin gedişindən sonra onun yerini Zidanın tutacağına əminəm".

Qeyd edək ki, Anri ilə birlikdə vaxtilə Fransa yığmasında oynayan Zidan hazırda "Real"ın əvəzedici komandasını çalışdırır.

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Son günlər ölkədə qaynar gündəm mövcuddur. Yaxınlaşmaqda olan Avropa Oyunları, iş adamlarının həbsi, iqtidar-müxalifət dialoqu.... prosesləri daha da sürətləndirir. İqtidar cəbhəsi bu sahələr üzrə hər şeyin planlı və qaydasında olması fikrini yürüdür.**
**"Yeni Müsavat" Milli Məclisin deputatı, YAP funksioneri Aydın Mirzəzadə ilə söhbətində durumu dəyərləndirdi və gündəmi zəbt edən mövzuları müzakirə etdi.**

# "İqtidar öz uğurlarına sevinir, müxalifətin uğursuzluğuna yox..."

## **Aydın Mirzəzadə:** "Sahibkarların, iş adamlarının kütləvi həbsi göstərir ki..."

***- Aydın bəy, mayın 15-nə nəzərdə tutulan iqtidar-müxalifət dialoqundan nə gözləyirsiz?***

- Ümumilikdə bu görüşlərin özü artıq nəticədir. Yeni Azərbaycanda demokratiyanın yeniləşməsi özünün yeni mərhələsinə çatıb. Artıq iqtidarla müxalifət vaxtaşırı dəyirmi masa arxasında müəyyən məsələləri müzakirə edir. Onsuz da Azərbaycanda dialoq atmosferi və əhval-ruhiyyəsi mövcuddur. Ayrı-ayrı şəxslərin və siyasi birliklərin öz fikirlərini bildirməsinin özü dialoqdur. Bəzən siyasi rəqiblər bir-birinin üzünü illərlə görmədən mətbuat və ictimai müzakirələr vasitəsilə bir-birinə fikirlərini çatdıra bilirdilər. Bu baxımdan dəyirmi masanın özü demokratiyanın yeni mərhələsidir. Bu, yaxşıdır. Heç kim heç kimdən mütləq onun kimi düşünüb hərəkət etməsini və fikirlərini olduğu kimi qəbul etməsini tələb etmir. Bu, demokratiyanın tələbinə zidd bir şeydir. Amma fikir bildirmək, fikrini yaxından öyrənmək, hansısa məsələdə ortaq bir məxrəc tapmağın özü müsbət məsələdir. Mayın 15-dəki görüş də şübhəsiz ki, bir sıra məsələlərin bir daha müzakirə olunmasına səbəb olacaq. Eyni zamanda bu, mütləq vacib deyil ki, hamı həmin görüşlərdə iştirak etsin. Kimsə fəaliyyətini hər hansı məsləhətləşmə etmədən qurmaq istəyə bilər. Ya da kimsə başqa bir forma axtarar. Bunların hamısı məqbuldur. Amma görüşlərin keçirilməsi, fikirlərlə daha yaxından tanış olması arzuedilən haldır. Bunların hamısı da şübhəsiz ki, hər kəsin öz mövqeyində dayanmaqla ümummilli maraqlar üçün orientirləri axtarması arzuedilən məsələlərdən biridir. Kimin hansı mövqedə dayanmasından asılı olmayaraq bütün siyasi qüvvələr Azərbaycan və onun sabahı üçün məsuliyyət daşıyırlar.

***- Görüşdən öncə deputat həmkarınız, YAP sədrinin müavini Siyavuş Novruzov açıqlama verməşdi ki, "nə Müsavat Partiyasının, nə də AXCP-nin ixtiyarı özündə olmadığı üçün bu dialoqla bağlı özləri cavab verə bilməz". Necə düşünürsüz, dialoq öncəsi belə açıqlamalar ümumi işə ziyan deyilmi? Ümumiyyətlə, nəyə xidmət edir belə sərt ittihamlar?***

- Həmkarım artıq bu məslə ilə bağlı mövqeyini bildirib. Bu gün özünü aparıcı siyasi təşkilatlardan hesab edən AXCP və Müsavat dəyirmi masalardan imtina edir. Əgər onların hansısa bir məsələ barədə arqumentləri varsa, cəmiyyətin fikrini həmin arqumentlərə yönəltmək istəyirlərsə, o tədbirlərdə də iştirak etməlidirlər. Çox qəribə situasiya yaranır: bir tərəfdən onlar ümummilli maraqlardan, demokratiyadan danışır, o biri tərəfdən isə bu dəvətlərdən imtina edirlər. Ona görə də bu iki partiyanın mövqeyi demokratik tələblərə cavab vermir.

***- Görüş şərtləri, dialoqun çərçivəsi qarşı tərəf üçün uyğun olmaya da bilər... Dərhal suçlamaq... demokratikdirmi?***

- Görüş ikitərəfli yox, çoxtərəflidir. Bu tərəflərin hərəsinin özünün fərqli baxışı ola bilər. Əgər hamı eyni cür düşünsəydi, hamının fikrinin eyni nöqtəyə gəlməsini gözləmək lazım gəlsəydi, onda bu dəyirmi masalar baş tutmazdı ki. Dəyirmi masalar onunla əlamətdardır ki, ilkin şərt qoymadan gəlinir və mövqe bildirilir. Əgər Müsavat və AXCP iqtidarın fəaliyyətini düzgün hesab etmirlərsə, dəyirmi masaya gəlib, buyursunlar və iqtidarın nümayəndəsinə öz mövqelərini bildirsinlər, polemika aparsınlar. Özlərinin arqumentlərini əsaslandırmağa çalışsınlar. İndiki halda isə hesab etmək olur ki, onların deməyə heç bir sözü yoxdur.

***- Müxalifətdən söz düşmüşkən, son günlər Müsavat daxilində baş verən proseslərə iqtidar düşərgəsinin baxışı da maraqlıdır. Elə bir təəssürat var ki, hakimiyyəti təmsil edən şəxslər yaşananları sevinclə izləyir.***

- Bir siyasi partiyanın təmsilçisi, Milli Məclisin deputatı kimi gün ərzində baş verən bütün prosesləri izləyirəm. İqtidar öz uğurlarına sevinir, kiminsə uğursuzluğuna yox. Demokratik cəmiyyətdə YAP iştirakçılardan biridir. O, öz mövqeyini möhkəmləndirməyə, tərəfdarlarını çoxaltmağa çalışır. Digərlərində nəticə necə olacaq? O onların fəaliyyətinin nəticəsidir. Konkret Müsavat Partiyasında baş verənlər isə uzun müddət Müsavat daxilində gedən proseslərin məntiqi nəticəsidir. Elan edilməsinə baxmayaraq, demokratik mühitin olmaması, şəxsiyyətə pərəstiş, fərqli fikrə dözümsüzlük, iqtidara qarşı mütləq müxalifət... bütün bunların hamısı sonda ona gətirib çıxarmalı idi. Ümumən götürdükdə isə onların nə qazanacağı öz problemi, fəaliyyətinin nəticəsidir.

***- Demokratik mühitin olmaması, şəxsiyyətə pərəstiş... Siz bunları Müsavat haqda dediz, amma cəmiyyətdə sadaladığınız bu cəhətlərin YAP-da olduğu deyilir. Paradoksal mənzərə yaranmadı?***

- Qətiyyən. YAP demokratik bir partiyadır. Bizim partiyamızda şəxsiyyətə pərəstiş yoxdur, hər bir nəfərin fəaliyyətinə qiymət verildiyi və ümumi maraq üçün gedən böyük bir kollektivin partiyasıdır. Bundan başqa, bizim partiyamız cəmiyyətlə sıx bağlıdır və cəmiyyətin əhval-ruhiyyəsini öz fəaliyyətində əks etdirməyə çalışır. Biz cəmiyyət üçün açığıq, insanların problemlərinin həlli ilə məşğuluq. Ona görə də qalibik və cəmiyyət bizə mandat verir.

***- Avropa Oyunlarına az qalmış ölkədə sahibkarların, iş adamlarının kütləvi həbsi də birmənalı qarşılanmadı. Bu prosesi necə qiymətləndirirsiz?***

- Bu, onu göstərir ki, qanun qarşısında hamı bərabərdir. Qanuna uyğun hərəkət etmək və qanunu pozmamaq lazımdır. Mən burda hansısa versiyanın üzərində dayanmaq və yenisini irəli sürmək fikrində deyiləm. Hüquq-mühafizə orqanları bununla bağlı açıqlama verəcək və bütün suallara aydınlıq gətirəcəklər. Bununla belə, hər bir kəs bilməlidir: qanun eyni zamanda onun üçündür.

***- Bu həbslərin Avropa Oyunları öncəsi baş tutması ölkənin beynəlxalq imicinə zərbə vurmayacaqmı? Eləcə də oyunlara kölgə sala biləcəyi də versiyalar arasındadır.***



**"İdman yarışına gələn turisti ölkədəki sahibkar həbsi maraqlandırmayacaq"**

- Həbslərin nə vaxt aparılması vaxtla deyil, dövlətin bugünkü müasir tələblərə necə cavab verməsi ilə ölçülür. Bu baxımdan kimlərsə qanunları pozublarsa, bundan ötrü xüsusi olaraq ilin bir müddətini ayırmaq düzgün olmazdı. Zaman nə zaman yetişirsə, həmin vaxt o məsələ qaldırılacaq. Azərbaycan demokratik ölkədir, açıq cəmiyyətdir. Gedən proseslər heç kimdən gizlədilmir. Bütün dünyada dövlətçilik necə inkişaf edirsə, Azərbaycanda da hər şey o axarda gedir.

***- Yəni bu, gələn qonaqlar, eləcə də yarışı izləyən xarici media mənsubları arasında "ölkədə həbslər var" təəssüratını formalaşdırmayacaqmı?***

- Hər halda, Azərbaycanın necə bir ölkə olduğunu dünya kifayət qədər tanıyır. Bu, demokratik və Avropa dəyərlərinin hakim olduğu ölkədir. Bundan başqa, hakimiyyətin qollarının bir-birindən asılı olmadığı, sərbəst fəaliyyət göstərdiyi bir ölkədir. O baxımdan idman yarışlarına gələn ilk növbədə buna maraq göstərir. Yəni idmana baxmağa gələn turisti inanmıram ki, hansısa sahibkarın qanunsuz fəaliyyətinə görə həbs olunması xəbəri maraqlandırsın. Biz də xarici ölkələrə səfər edirik. Doğrudanmı ora gedəndə hansısa sahibkarın qanunla problemini özümüz üçün prioritet hesab edirik? Xarici ölkə mətbuatı üçün də problem yoxdur. Onlar da Azərbaycanda gedən prosesləri istədiyi prizmadan işıqlandıra bilər. Əksinə, o, problem olardı ki, hansısa bir problem yaranar, ona göz yumulardı.

***- Əfvlə bağlı gözləntilər də son günlər artıb. Oyunlar öncəsi bunun baş tutması gözlənilirmi?***

- Çox təqdirəlayiq haldır ki, vətəndaş dövlət başçısının humanistliyini bilir və buna inanır. Ölkə başçısı "mən bütün azərbaycanlıların prezidentiyəm" öhdəliyini yerinə yetirir. Vaxtaşırı bunlar olur və olacaq. Konkret olaraq bunun hansı gün olacağını demək çətindir. Çünki bu, dövlət başçısının səlahiyyətindədir. Amma il ərzində yüzlərlə, bəzən minə qədər insanın öz ailəsinə qovuşması, öz əməlindən nəticə çıxarması cəmiyyətdəki ab-havaya müsbət təsir göstərir. Ona görə də əfv gözlənilləndir.

***- Ölkədəki siyasi məhbusların sayı baxımdan da vəziyyət ürəkaçan deyil. Əfvlə bağlı sualım daha çox bu problemin necə həll olunacağına hesablanmışdı...***

- Birinci onu vurğulayaq ki, Azərbaycanda siyasi məhbus yoxdur. Avropa Şurası da Azərbaycanda siyasi məhbus olduğunu qəbul etmir. Bilir ki, siyasi məhbus olduğu ehtimal edilən şəxslər var. Bundan başqa, kiminsə hansısa siyasi mənsubiyyətdə olması onu qanun qarşısında məsuliyyətdən azad etmir. Onlar siyasi baxışlarına, mövqelərinə görə həbs edilməyiblər. Konkret müəyyən bir qanunu, qaydanı pozduqlarına görə məhkum ediliblər. Təbii ki, zamanı gəlincə onlar da azadlığa buraxılacaqlar. Biz dəfələrlə siyahıda gözlənilməyən adlara rast gəlmişik. Arzu edərəm ki, bu şəxslər törətdikləri əməldən nəticə çıxarsınlar, bir daha belə hərəkətə yol verməsinlər. Mən bu kateqoriyadan olan bütün məhbusların azadlığa qovuşmasını istəyərdim.

❑ **Sevinc TELMANQIZI**



# "Azərbaycan"ın baş redaktorundan "Yeni Müsavat"a qarşı anlamsız hücum...

**Bəxtiyar Sadıqova Rauf Arifoğlundan cavab gəldi:** "Onun bəlkə dünyadan xəbəri var, amma Azərbaycandan və "Yeni Müsavat"dan yoxdur..."

**"Azərbaycan" qəzetinin 14 may tarixli sayında qəzetin baş redaktoru Bəxtiyar Sadıqov ilginc müəllif yazısı ilə çıxış edib. Avropa Oyunlarına qarşı antitəbliğat aparanları qeyd edən baş yazar bu xüsusda fərqlənən "daxili düşmənləri" də tapıb və bu zaman illərlə çəkişmədə, "müharibə"də olan "Azadlıq" qəzeti ilə "Yeni Müsavat"ı "müttəfiq" kimi qələmə verib. "Dünyadan xəbərsizlər" başlıqlı yazısında baş redaktor "Yeni Müsavat"ı ölkəmizin I Avropa Oyunları keçirmək hüququ qazanması, eləcə də Avropa Oyunlarının məşəlinin yandırılması ilə bağlı xəbərləri işıqlandırmamaqda qınayıb:**

"Bəlkə həmin tədbirlərin birində kiminsə ayağı ilişib yıxıldı, üstü toza batdı! Belə bir manşet yazısını əldən verərlər? Yaxud hansısa rayonda idmançılardan biri həyəcanlanaraq məşəlin kranını çox burdu, qaz israfçılığına yol verdi! Dövlət büdcəsinə dəyən ziyan barədə necə də gözəl bir təhlili yazı çıxar!", - deyə vurğulayan B.Sadıqov həmçinin qəzetimizi I Avropa Oyunlarına hazırlıq işləri barədə indiyədək bir kəlmə müsbət söz söyləməməkdə də suçlayıb: "Yoxsa hamının görüb qiymətləndirdiyi yaxşı işlərdən bircə kəlmə yazmağa belə qorxurlar?! Elə isə kimdən və niyə?", - deyə sual edən baş yazar yazının P.S qismində isə aşağıdakı qeydi edib: "Az qala yadımdan çıxmışdı. Hər bir qəzetin nədən, nə vaxt, necə yazması öz işidir. Biz heç kəsin daxili işlərinə qarışmırıq!"

**B.Sadıqovun yazısında ciddi ittiham hədəfi olan "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu isə söz haqqından istifadə edib, barəsində və rəhbəri olduğu media orqanı haqda deyilənlərə cavab verdi. Ölkə miqyasındakı bir kampaniyada düşmən qismində elan edildiyini sözügedən yazıdan öyrəndiyini deyən baş redaktor B.Sadıqovun fikirlərini heyrətlə oxuduğunu vurğuladı:** "Eyni zamanda həm gülmək, həm heyrətlənmək hissləri məndə paralel doğdu. Çünki hər iki hissi eyni anda yaşamamaq mümkün deyil. Bəxtiyar Sadıqovla hər ikimiz Mətbuat Şurası İdarə Heyətinin üzvləriyik. Bu yazını yazmadan öncə məndən də fikir ala, münasibətini izhar edə,



məni dinləyə bilərdi. Amma bu hərəkətə yol vermədən məni ölkə miqyasında aparılan bir kampaniyanın düşməni elan edib".

**R.Arifoğlu dedi ki, həm heyrəti, həm də gülüş doğuran isə B.Sadıqovun "Azadlıq" qəzeti ilə "Yeni Müsavat"ı eyniləşdirməsidir. Müsahibimizin sözlərinə görə, illərdir bu qəzetlə "Yeni Müsavat" arasında heç bir əlaqə, paslaşma yoxdur:** "Əvvəllər çox olub. İctimai Palatada Əli Kərimli ilə təmsil olunarkən - o eyni zamanda AXCP sədri və "Azadlıq" qəzetinin faktiki baş redaktorudur - onunla paslaşaraq yazılar, materiallar və informasiyalar vermişik. Son illərdə bu, yoxdur və bunun əksidir. Az qala müharibə vəziyyətindəyik. Bəxtiyar Sadıqov bizi öz yazısında dünyadan xəbərsiz elan edib. Amma onun öz ölkəsindən və media mühitindən xəbəri yoxdur".

**"Yeni Müsavat"ın baş redaktoru bildirdi ki, B.Sadıqov öz yazısında onu qəzetə keyfiyyətsiz rəhbərlik etməklə yanaşı, həm də yazmadığı yazılara görə suçlayıb. Müsahibimizin sözlərinə görə, həmkarı onun təklif etdiyi tematika üzrə yazılar yazmalı olduğunu iddia edir:** "Məşəlin istiqaməti, trayektoriyası haqqında, açılış-qapanış törəni haqda onun istədiyi kimi yazılar yazmalı olduğumuza işarə vurur. Məlumat üçün bildirim ki, bunların hamısı haqqında xəbər, məlumat vermişik. Amma biz "Azərbaycan" və "Yeni Azərbaycan" qəzetinin işlətdiyi ifadələri, terminləri işlətmədən soyuq xəbər şəklində vermişik. Azərbaycan prezidentinin bu böyük tədbirlə bağlı atdığı bütün addımları, getdiyi bütün tədbirləri və iştirak etdiyi mərasimləri işıqlandırmışıq. Amma bunu etməsək belə, Bəxtiyar Sadıqovun heç bir haqqı yoxdur ki, bizim işimizə müdaxilə etsin. Yazının sonunda isə P.S yazaraq əlavə edir ki, heç bir qəzetin işinə qarışmırlar. O, öz P.S-ni oxuyandan sonra gərək bu yazını çap etməyəydi".

**Bununla belə, R.Arifoğlu ümid edir ki, bu yaxınlarda görüşüb bu məsələ ilə bağlı bilavasitə müzakirə apara biləcəklər. Müsahibimizin sözlərinə görə, ancaq bundan sonra bəzi suallar aydınlığa qovuşacaq:** "O zaman biləcəm ki, 37-ci illərdə xalq düşmənlərini nişan verirmiş kimi, həmin taktika ilə məni və mənim qəzetimi kimə nişan verir? Bunun arxasında dayanan marağı nədən ibarətdir. Bunu özündən soruşacam. Bir daha vurğulayıram ki, bu tədbiri ölkəm üçün mühüm hesab edirəm. Bununla bağlı gedən proses də məni qane edir. İçimizdə və yazılarımızda heç bir qınaq prosesi yoxdur. Əksinə, təqdir etmişik. Eyni zamanda Avropa Oyunlarına da akkreditasiya olunmaq mərhələsindəyik. Şəxsən mən özüm də müxbirlərimlə bərabər bu tədbirlərdə iştirak edəcəm. Akkreditasiya siyahısında mənim də adım var. Oradan da reportajlar verəcəyik. Bəxtiyar Sadıqovun bəlkə dünyadan xəbəri var. Amma Azərbaycandan və "Yeni Müsavat"dan xəbəri olmadığı üçün bu cür təhrif bir yazı yazıb".

❑ **Sevinc TELMANQIZI**

# Azərbaycan və Türkiyəyə ortaq İŞİD təhlükəsi

Patruşevin Bakı səfəri ilə NATO-nun Antalya sammitini birləşdirən tək mövzu; **ekspert:** "Radikal güclər Azərbaycanı öz hədəflərində saxlayır..."

**Rusiya Təhlükəsizlik Şurasının katibi, general-mayor Nikolay Patruşevin iki günlük Bakı səfəri başa çatdı. Səfərlə bağlı mətbuata geniş açıqlamalar verilməsə də, aydındır ki, tərəflər Patruşevin, vəzifəsindən də göründüyü kimi, təhlükəsizlik sahəsində problemləri, ələlxüsus isə ortaq əhəmiyyət kəsb edən problemləri və təhdidləri ön planda müzakirə edib, fikir və informasiya mübadiləsi aparıblar.**

Ortaq təhdid və ya problemlərdən biri də təbii ki, İŞİD təhlükəsidir. Bu təhlükə bütünlüklə Azərbaycanın, qismən və daha çox isə Rusiyanın cənub regionlarının üzərindən Domokl qılıncı kimi asılıb. Elə ötən ay Rusiya Federal Təhlükəsizlik Xidmətinin direktor müavini Sergey Smirnov Daşkənd toplantısında bəyan eləmişdi ki, İŞİD Rusiyada başqa terror təşkilatlarına nüfuz etməyə başlayıb və əksəri Şimali Qafqaz sakini olmaqla, 1700-ə yaxın Rusiya vətəndaşı hazırda onun sıralarında döyüşür: "Ümumiyyətlə, silahlı qruplaşmanın tərkibində 4 minə yaxın postsovet sakini var" - əlavə eləmişdi o.

Azərbaycan üçün də bu, ciddi problemdir. Ölkədə hüquq-mühafizə və məxfi xidmət orqanları nə qədər ayıq-sayıq olsa da, İŞİD özünə münbit və potensial ölkələrdən biri kimi Azərbaycanı da görür. Hazırda Bakıda məhkəməsi gedən azərbaycanlı İŞİD-çilərin açıqlamaları buna sübutdur.

Patruşevin Bakı ziyarəti həm də bu xüsusda aktuallıq kəsb edir. Ekspert rəyləri də vəziyyətin ciddiliyindən xəbər verir. Məsələn, **rusiyalı politoloq Qriqori Trofimçuk** axar.az-a açıqlamasında bildirib ki, "Bakı Avropa Oyunlarının təşkil zamanı əsas detallardan biri Azərbaycanın təhlükəsizliyidir".




**Onun sözlərinə görə, radikal qruplar Azərbaycanı hədəfə alıblar:** "Patruşevin Bakıya səfəri sayəsində Moskva iki ölkə arasında münasibətlərin nəinki iqtisadi sahədə, həm də daha yüksək - təhlükəsizlik sferasında olduğunu nümayiş etdirir. Rusiya nümayəndə heyətinin Azərbaycan prezidenti İlham Əliyevlə görüşü zamanı müzakirə edilən məsələlər bunu tam şəkildə təsdiqləyir. Tərəflər arasında müzakirə edilən əsas məsələlərdən biri regional problemlər və beynəlxalq təhlükəsizlik olub. Birinci Avropa Oyunlarını zamanı əsas detallardan biri Azərbaycanın özünün təhlükəsizliyidir ki, bu da mühüm əhəmiyyət kəsb edir. Bunlar sırasında radikal baxışlara sahib olan qruplaşmalar var ki, onlar da Qərb koalisiyasının Əfqanıstandan çıxmasından sonra daha da aktivləşiblər".

**Ekspert bu kimi təhlükələrin qarşısının tam şəkildə alınması üçün birgə və koordinasiyalı fəaliyyəti zəruri sayır:** "Məncə, radikal güclər Azərbaycanı öz hədəflərində saxlayırlar. Bu ölkə sosial inkişaf, təhsil, mədəniyyət sahəsində özünün müstəqil dünyəvi yanaşmalarını tətbiq edir. Keçmiş sovet məkanının cənubunda belə dövlət prinsiplərinə təəssüf ki, nadir hallarda rast gəlinir".

"Təhlükəsizlik sahəsində aktiv və müntəzəm Rusiya-Azərbaycan əlaqələrini yalnız alqışlamaq olar. Əgər bu inam səviyyəsinə Qarabağ konfliktinin həlli sxemi də əlavə edilsə, o zaman Cənubi Qafqaz üçün heç biri xarici təhdid qorxulu olmayacaq" - əlavə edib politoloq. Xarici təhdidlərin ön sıralarında isə İŞİD hədələri də yer alıb.

Xatırladaq ki, Rusiya İŞİD-i rəsmən terrorçu qruplaşma kimi tanıyıb.

***

Təqdirəlayiqdir ki, bu arada NATO-nun XİN başçıları səviyyəsində Antalyada keçirilən sammitində də İŞİD mövzusu diqqət mərkəzinə gətirilib. Xəbər verildiyi kimi, zirvə görüşünə 28 üzv ölkənin təmsilçiləri, həmçinin Avropa Birliyi nümayəndələri və BMT-nin Baş katibinin Əfqanıstandakı xüsusi nümayəndə köməkçisi qatılıb.

NATO-nun baş katibi Jen Stoltenberq çıxışında İŞİD-lə mübarizə tədbirlərini müzakirə etməyin zəruriliyini qeyd edib. Türkiyə rəsmiləri isə İŞİD təhdidlərinə qarşı qərarlı bir şəkildə hərəkətə keçməyin vacibliyini vurğulayıblar. Belə ki, baş nazir Əhməd Davudoğlu İŞİD mövzusunda əməkdaşlıq çağırışı edib. Suriyada 12 milyon adamın vətənsiz qaldığını bildirən Davudoğlu Türkiyədə də 2 milyondan çox suriyalı olduğunu xatırladıb.

"Xərclərimiz 6,5 milyard dollara çatıb. Bütün beynəlxalq birliyin xərcləri 356 milyon dollar səviyyəsində çatıb. İŞİD-in idarəçiliyi altındakı torpaqlarla sərhədi olan tək ölkə kimi Türkiyəyə milli təhlükəsizlik təhdidi var. Beynəlxalq birlik bu mübarizədə əməkdaşlıq etməlidir. Hərbi, iqtisadi və humanitar yönlü bir plana ehtiyac var", - deyə o qeyd edib. O da qeyd edilib ki, NATO bir ildən də çox müddətdə cənub sərhədindəki İŞİD təhdidindən daha çox şərq sərhədindəki Ukrayna böhranına fokuslanmış durumdadır.

***

**Ancaq məsələdə ən önəmli tərəf şübhəsiz ki, NATO-nun əsas cənub cinahını təşkil edən Türkiyəyə İŞİD-lə bağlı effektli dəstəyin verilməsidir. Qardaş ölkənin bu təhlükədən etibarlı sığortalanması isə əlbəttə ki, həm də Azərbaycanın sığortalanmasıdır.**

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015

# Deputatlardan və müxalifətdən iş adamlarının həbsinə reaksiya gəldi

**Azərbaycanda yeni növ sahibkarların - böyük kreditlər alıb qaytarmayanların həbs dalğası başlayıb. "Beynəlxalq Bank işi" kimi gündəmə gələn proses maraqlı mənzərəni ortaya çıxarıb. Səhmlərindən yarıdan çoxu dövlətə məxsus olan Azərbaycan Beynəlxalq Bankı illərlə oliqarx-məmurlara, onlara tabe olan sahibkarlara kreditlər verib və həmin kreditlərin faizləri bir kənara, əsas hissəsini də geri ala bilməyib. Milyardlarla kreditə qol çəkən oliqarx-məmurlar buna baxmayaraq, Beynəlxalq Bankdan kredit almaqda çətinlik çəkməyiblər. Onlara hələlik naməlum səbəblərdən kredit verməkdə davam ediblər. Ümumilikdə 70-dən çox oliqarx-məmur istintaqa cəlb olunub, onlardan bəzilərini artıq azad ediblər.**

Lent.az-ın əldə etdiyi məlumata görə, buna səbəb həmin şəxslərin külli miqdarda kredit borclarını tamamilə ödəməsi olub. Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən saxlanılmış iş adamlarından 14 nəfər sərbəst buraxılıb.

Xəbər verdiyimiz kimi, "Beynəlxalq Bank işi" üzrə Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisi, "AzImport" şirkətinin sahibi Rəşad Məmmədov saxlanılıb. Səbayel Rayon Məhkəməsi Rəşad Məmmədovun barəsində həbs-qətimkan tədbiri seçib.

İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudovun APA-ya verdiyi məlumata görə, R.Məmmədov Milli Təhlükəsizlik Nazirliyinin (MTN) istintaq təcridxanasında saxlanılır. E.Behbudov R.Məmmədovun dövlət tərəfindən vəkillə təmin olunduğunu və hazırda istintaq aparıldığını deyib.

R.Məmmədov prezident İlham Əliyevin mayın 4-də imzaladığı sərəncamla vəzifəsindən azad olunub. Strateq.az Rəşad Məmmədovun anasının erməni olduğu haqda məlumat yayıb. Saytın xəbərinə görə, onun anası Aida Stepanovna Martirosovadır.

### EEİG - tutulanların güc mərkəzi olub?

Qafqaz Xəbər Agentliyi tutulanlarla bağlı maraqlı məqamı üzə çıxarıb. Məlum olur ki, tutulan sahibkarların böyük əksəriyyəti EEİG - Avropa İqtisadi Ticarət, Kommersiya və Sənaye Palatasının üzvləridir. Qurumun spikeri əslən Nehrəmdən olan Kərim Əlirzayevdir. Agentlik xəbər verir ki, Kərim Əlirzayev bu vəzifədən əvvəl Sumqayıt gömrük idarəsində "inhisarçı" vəzifəsini yerinə yetirib. Ancaq sonradan işində problemlər ortaya çıxdığı üçün Azərbaycanı tərk edərək Türkiyədə özünə iş qura, EEİG-nin Türkiyə nümayəndəliyinin prezidenti ola bilib.

Agentliyin yaydığı xəbərdə xüsusi olaraq qeyd olunur ki, Azərbaycandan küsüb xarici ölkədə biznes quran oliqarxlar, sonradan öz doğma ölkəsinə qayıtmaq üçün EEİG təşkilatına üzv olurlar, yəni EEİG bu şəxsləri sanki reabilitasiya edir, onlara toxunulmazlıq statusu verir. Əks təqdirdə, vətənə qayıdanda onlara öz "şanlı keçmişlərini" yada salarlar. EEİG-nin fəaliyyətinin nədən ibarət olmasına gəlincə isə bu təşkilat hotellərə, yaxud hansısa qida məhsuluna, yaxud içkiyə EEİG-nin standartlarına uyğun olması haqda sertifikat verməklə məşğuldur.

EEİG-nin üzvü olmaq üçün ildə min avro pul ödəməlisən və sonra hər il həmin prosedur təkrarlanır. EEİG-nin 70-ə yaxın ölkədə nümayəndəlikləri var və həmin qurumun Azərbaycan üzrə prezidenti Nizami Piriyev, Türkiyə üzrə isə Kərim Əlirzayevdir. EEİG-nin rəsmi veb saytından da bəlli olur ki, EEİG-nin bir çox ölkələrdəki nümayəndəliklərinin prezidentləri azərbaycanlıdır. Onlar hamısı Kərim Əlirzayevin, Nizami Piriyevin və digərlərinin xeyir-duası ilə həmin nümayəndəliklərin prezidenti vəzifəsinə təyin olunublar. Qurumun ən iri fiqurlarından biri də Fərhad Əhmədovdur. Onun bu təşkilatda missiyası nə olub? Görəsən, tutulan "narazılar" EEİG-də toparlanmaqla nə etmək istəyiblər? EEİG-də toplaşanların həbsi təsadüfdürmü? Bu suallar açıqdır...

### Deputatlar "həbslər davam edəcək" deyir

**"Həbs olunanlar o pullara özləri üçün bağ, ev, obyekt alıb..." Deputat Çingiz Qənizadə qafqazinfo.az-a açıqlamasında son günlər ölkədə baş verən həbslərə münasibət bildirərkən belə deyib. Bildirib ki, bir neçə iş adamının, eyni zamanda Dövlət Bayraq Meydanının sabiq rəisinin həbs olunması və banklarda baş verən problemlər onları ciddi düşündürür:** "Bu, gözlənilən idi, çünki müəyyən insanlar dövlətdən və banklardan külli miqdarda kredit adı ilə pullar götürərək onları təyinatı üzrə xərcləməyiblər. Onlar hətta kreditlərin vaxtında geri qaytarılması üçün görülən tədbirlərə reaksiya verməyiblər və beləliklə, həm banklarda pul qıtlığı yaranıb, həm də problemli kreditlərin həcmi artıb. Təəssüf hissi ilə qeyd edirəm ki, onların arasında cəmiyyətdə tanınan, böyük layihələrin sahibi olduğunu qeyd edən, bəzən də öz hərəkətləri ilə başqalarında ikrah hissi oyadanlar da var. İndi məlum olur ki, əldə etdikləri vəsaitlərin böyük əksəriyyəti kredit adı altında alınıb və təyinatı üzrə xərclənməyib. Bəziləri bu pullara özləri üçün bağlar, evlər, müəyyən obyektlər almaqla məşğul olub və qanunun tələblərini açıq şəkildə pozublar".

**Deputat qeyd edib ki, proses davam edəcək və bu, 2011-ci ildə prezidentin irəli sürdüyü korrupsiyaya qarşı mübarizə proqramının tərkib hissəsidir:** "Bu talançılığa son qoyulmalı idi və prezident də yaxın zamanlarda belə bir fikir ifadə etmişdi. Manatın devalvasiyası zamanı və ondan əvvəlki proseslər göstərirdi ki, bir qrup insanlar, - onların arasında məmurlar da var, - belə çətin məqamda yenə də varlanmağa cəhd ediblər. Artıq biz burada aşağı təbəqə yox, orta təbəqə, iş adamları, sahibkarlar, bank rəhbərləri və dövlətdə müəyyən vəzifə tutan insanlardan söhbət getdiyini görürük. Məncə, bu həbs dalğası hələ bir müddət davam edəcək". **Ç.Qənizadə əlavə edib ki, kimliyindən asılı olmayaraq qanunu pozan, talançılıqla məşğul olan, ayrı-ayrı insanların mülklərini hədə-qorxu ilə alıb özləri üçün müəyyən obyektlər tikən insanlar qanun qarşısında cavab verməlidir:** "Bu pulları geriyə qaytara bilsək, ölkədəki pul qıtlığının müəyyən hissəsinin də aradan qaldırılmasına nail ola bilərik".

**"Verilən kreditlərin geri qaytarılmaması Azərbaycan üçün ən böyük bəladır. Hökumət bunun qarşısını almaq, ayrı-ayrı iş adamlarında qalan vəsaitlərin geri alınması üçün sərt tədbirlərə əl atmalıydı, atdı da". Bu sözləri aznews.az-a Milli Məclisin İqtisadi-siyasət komitəsinin üzvü Vahid Əhmədov deyib. O bildirib ki, həbslər davam edəcək:** "Kredit borcları həddindən artıq çoxalmışdı. Banka borclar çoxdur, ona görə də belə proseslər gedir. Bu, gözlənilən idi. Çünki kredit borcları haradasa, 1 milyardı ötmüşdü. Biz dəfələrlə Milli Məclisdə kredit faizlərinin yüksək olması, kreditlərin qaytarılmaması məsələlərinə toxunurduq. Qərar qəbul olunub, müəyyən yoxlamalar keçirilir. Kim dövlətin qanun-qaydasını pozubsa, cəzasını çəkəcək. Burada qeyri-adi bir şey yoxdur. Mənə elə gəlir ki, hələ bir müddət bu həbslər davam edəcək, qanunları pozan xeyli iş adamı cəzalanacaq". **Kimlərin həbs olunacağı məsələsinə gəlincə, V.Əhmədov bildirib ki, bu barədə əvvəlcədən proqnoz vermək çətindir:** "Dövlətin əmlakı mənimsənilibsə, hər kəs başa düşməlidir, qanun var və o, məsuliyyətə cəlb oluna bilər. Bu, vəzifə sahibidir, məmurdur, şirkət rəhbəridir, fərq eləmir. Qanun qarşısında hamı eynidir. Söhbət Azərbaycan qanunlarının pozulmasından gedir".

### Müxalifətdən həbslərə reaksiya gəldi

Sahibkarların həbsi ilə bağlı müxalifət düşərgəsinin mövqeyi də deputatların mövqeyi ilə üst-üstə düşür.

Müsavat başqanının müavini Elman Fəttah "Yeni Müsavat"a açıqlamasında tutulanların sözün həqiqi mənasında sahibkar hesab etmədiklərini qeyd edib: "Hazırda həbs olunanlar maliyyə cinayətləri törədənlərdir. Daha az maliyyə cinayəti törədənləri cəzalandırmağa başlayıblar. Bununla belə, tutulanların hüquqları tapdanacaqsa, onlara qarşı qanunsuzluqlar olacaqsa, biz onların hüquqlarının tapdanmasına biganə olmayacağıq. Azərbaycanda hüquq sistemi elə biabırçı durumdadır ki, ən qatı cinayətkarların belə hüquqlarını pozurlar. Belə hallara Müsavat Partiyası həmişə etiraz edib. Əgər hazırda həbs olunan şəxslərə qarşı da eyni hərəkətlərə yol veriləcəksə, təbii ki, bununla razılaşmayacağıq. Dediyim kimi, bu, hakimiyyətin özünün maliyyə cinayəti şəbəkəsidir, daxili çəkişmələr nəticəsində daha az maliyyə cinayəti törətmişlər istintaqa cəlb olunublar".

**KXCP sədri Mirmahmud Mirəlioğlu deyir ki, tutulanları sahibkar adlandırmaq düzgün deyil:** "Hakimiyyət bu adamlara imkan verib ki, dövlətin pulları hesabına varlansınlar, özlərinə şərait yaratsınlar. İndi də onların "biçilməsi"nə qərar verilib, əmlaklarının müsadirə olunmasına "yaşıl işıq" yandırılıb. Bu adamlardan lazım gələndə qoçu dəstəsi, lobbiçi kimi istifadə edirdilər. Yəni hazırda baş verənlər sırf hakimiyyətin daxili işidir. Bu adamlara kredit verilməsi də, onlara həmin kreditləri yeyib-dağıtmağa şərait yaradılması da qanunsuz idi. Əgər vətəndaş kimi hüquqları pozulacaqsa, biz onları müdafiə edəcəyik".

**Azərbaycanın keçmiş baş naziri, Xalq Partiyasının lideri Pənah Hüseyn bildirib ki, dövlət banklarının kredit verməsi ciddi nəzarət altındadır:** "Hakimiyyətdaxili qruplaşmaların burada pay bölgüsü aparması da məlum məsələdir. Beynəlxalq Bankda belə bir durumun olması illər öncədən məlum idi. Eyni zamanda Beynəlxalq Bankın problemli kreditlər üzündən özəlləşdirilməsinin ləngidildiyi də aydın idi. Təbii ki, son dövrdə maliyyə böhranı bu problemi çılpaqlığı ilə ortaya çıxarmalı idi. Beynəlxalq Bankdan əvvəl oxşar durum "Texnikabank"da yaşanmışdı. Bir günün içində bankın rəhbərliyi, idarəçiləri dəyişdirilmişdi. Bu yolla vəziyyətdən çıxmaq istəyirdilər. Amma bu yaxınlarda məlumat yayıldı ki, "Texnikabank" defolt ərəfəsindədir. Bank sektorunda baş verənlər iqtisadi proseslərin bazar iqtisadiyyatı qanunları əsasında yox, hüquq-mühafizə orqanlarının qanunları əsasında idarə edilməsinin təzahürüdür".

**P.Hüseyn deyir ki, bu, bank sektorunda baş verən mənfi proseslərin başlanğıcıdır və belə həbslərin dalğasının davam etməsi labüddür:** "Təəssüf ki, bu gün Azərbaycan iqtisadiyyatı başdan-ayağa bu modellə idarə olunur. Hazırda bu modelin bank sektorunda əmələ gətirdiyi böyük və katostrofik fəsadların aradan qaldırılmasına yönələn cəhdləri müşahidə edirik. Əlbəttə ki, dələduzlar cəzalanmalı, dövlətin vəsaitləri qaytarılmalıdır. Amma bu cür addımlar daha geniş miqyasda labüd olacaq. Bu proseslərin siyasi havadarlara gedib çıxacağını da söyləmək hazırda mümkün deyil".

**P.Hüseyn bildirdi ki, baş verənlər bir daha iqtisadiyyatla siyasətin ayrılması zamanının yetişdiyini göstərir:** "Məmur-olqarx modelindən imtina olunmalıdır. Bu gün ölkə iqtisadiyyat ayrı-ayrı məmurların inhisarındadır. Bu model böyük fəsadlara gətirib çıxarıb. Bu gün həbs olunanlar hakimiyyətin öz adamlarıdır. Onları sahibkar kimi müxalifətin dəstəkləməsi də bu səbəbdən mümkün deyil".

❑ E.MƏMMƏDƏLİYEV



**Çingiz Qənizadə: "Dövlətin pulunu yeyib dağıdıblar, indi də cavab versinlər"**



**Pənah Hüseyn: "Tutulanları müxalifətin dəstəkləməsi ona görə mümkün deyil ki..."**

**İqtisadçı ekspert, keçmiş müsavatçı və ADR Hərəkatının rəhbəri Qubad İbadoğlunun Bakıdakı ofisində axtarış aparılması birmənalı qarşılanmır. Həmin olayın Müsavat Partiyasında narazılıqların yüksəldiyi ərəfədə baş verməsi bəzi suallar yaradır.**



# "Qubad İbadoğlunun ofisində axtarışdan şübhəm var"

## Ellada Məmmədli: "Hakimiyyətin Müsavatdan ayrılanların ADR-ə qoşulmasında marağının olmadığı hamıya aydındır"

Bəzi ekspertlər ehtimal edirlər ki, Q.İbadoğlunun ofisində axtarış və müsadirə aparılması Müsavatdakı narazıların ADR-ə axınının qarşısını almaq cəhdidir. Belə ki, Müsavatdan qovulan, istefa verən, həmçinin hələ də partiyada qalmaqda olan narazıların kütləvi şəkildə ADR-ə qoşulma ehtimalı yüksək göstərilir. Bildirilir ki, hakimiyyət bu narazıların ADR-ə qoşulmasını və hərəkatın genişlənməsini istəmir. Məlum axtarış da bunun nəticəsidir.

**ADR Hərəkatının İdarə Heyətinin üzvü Ellada Məmmədli** məsələ ilə bağlı musavat.com-un suallarını cavablandırıb. O, açıqlamasında bildirib ki, axtarış Qubad İbadoğlunun rəhbərlik etdiyi QHT-nin fəaliyyəti ilə bağlıdır: "Bu axtarışın ADR-lə bağlılığı yoxdur".

**O, Q.İbadoğlunun ofisində axtarış aparılmasının Müsavat Partiyasında baş verən narazılıqlarla eyni vaxta düşməsini təsadüf hesab etdiyini də bildirib:** "Hesab edirəm ki, bu, sırf təsadüfə oxşayır. Məsələnin Müsavatda baş verənlərlə, eyni zamanda ADR-Musavat münasibətləri fonunda baş verdiyinə şübhələrim var. Hakimiyyətin Müsavatdan ayrılanların ADR-ə qoşulmasında marağının olmadığı hamıya aydındır. Ancaq yenə təkrar edirəm ki, bu axtarışların ADR-lə bağlılığını ehtimal etmirəm". O, Müsavat Partiyasından qovulan narazıların, həmçinin hələ də təmsil olunanların arasından ADR-ə müraciət edənlərin olduğunu da vurğulayıb: "Müraciətlər var".



Ellada Məmmədli

**E.Məmmədli ADR sədrinin həbs təhlükəsini də istisna etməyib:** "Qubad bəy özünün həbs təhlükəsi ilə bağlı belə bir ehtimalın mümkünlüyünü bildirib. O ki qaldı Qubad bəyin həbs olunacağı təhlükəsindən Bakıya qayıtmayacağına, bu, söz-söhbətdən başqa bir şey deyil. Qubad bəy özü də bu variantın mümkünsüzlüyünü bildirib. Hələlik bu məsələ ADR-də müzakirə edilməyib. Ancaq ola bilsin ki, İdarə Heyətinin növbəti toplantısında bu məsələ gündəliyə salınsın və müzakirə edilsin".

Qeyd edək ki, ADR hərəkatının sədri Qubad İbadoğlunun Bakıdakı ofisində mayın 13-də axtarış aparılıb. Baş Prokurorluğun Ağır Cinayətlər üzrə İstintaq İdarəsinin əməkdaşları İqtisadi Tədqiqatlar Mərkəzinin ofisində üç saatadək davam edən axtarışdan sonra Mərkəzin və İctimai Birliklərin Mədən sənayesində şəffaflığın artırılması Koalisiyasının, Milli Büdcə Qrupunun bütün kompüterlərini və maliyyə-mühasibat sənədlərini müsadirə edərək aparıblar. "Bu, onu göstərir ki, ötən ilin aprel ayından bir qrup QHT-lərin əleyhinə aparılan istintaqdan 1 il keçməsinə baxmayaraq, hələ də yekunlaşmayıb, vətəndaş cəmiyyətinə təzyiqlərin yeni mərhələsi başlayıb və sifariş yuxarıdan gəlib. Çünki ofisə gələnlər "Bu, bizlik deyil",- deməklə özlərini sığortalamaq istəyiblər. Hesab edirəm ki, bu mənim Mədən sənayesində şəffaflıq üzrə Beynəlxalq İdarə Heyətindəki fəaliyyətimlə bağlıdır. Çünki, Mədən sənayesində şəffaflıq üzrə Beynəlxalq İdarə Heyətinin son iclasında Azərbaycanın statusu tam hüquqlu üzvdən namizəd üzvə endirilib".

❑ RÖYA



# Bu gün iqtidar-müxalifət görüşü keçiriləcək...

## Əksəriyyət görüşdə iştirak edəcək, tədbirdən gözləntilər var...

**Bu gün-mayın 15-də keçiriləcək növbəti iqtidar-müxalifət görüşü ilə bağlı müxalif düşərgə razılığa gəlib. Demək olar ki, hər kəs müzakirələrdə iştirakın tərəfdarıdır. Qeyd edək ki, görüş Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun rəhbərliyi ilə mayın 15-də saat 10:00-da baş tutacaq.**

Əvvəlki iki görüşdə iştirak etməyən Müsavat Partiyası bu görüşə də getməyəcək. Partiya həmçinin iqtidarla dialoqla bağlı təkliflər də irəli sürüb. Bunlar siyasi məhbusların azadlığa buraxılması, 21 may Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" təşəbbüsü üzrə Riqa sammitində dövlətin yüksək səviyyədə təmsilçiliyinin təmin olunması, Avropa İttifaqı ilə assosiativ sazişin ölkəmiz tərəfindən imzalanmasıdır. Həmçinin təkliflər demokratik islahatların, o cümlədən mətbuat azadlığı, sərbəst toplaşma azadlığı və digər hüquqların təmin edilməsi, seçki islahatlarının həyata keçirilməsi istiqamətində ciddi addımların atılması ilə bağlıdır. Partiyadan bildirilir ki, bu təkliflər reallaşacağı halda dialoqa gedə bilərlər.

Hökumətin dialoq dəvətinə AXCP-dən də cavab gəlib. Bildirilir ki, AXCP Prezident Administrasiyası tərəfindən 15 may tarixində iqtidar-müxalifət dialoqu adı altında Beynəlxalq Mətbuat Mərkəzində keçiriləcək tədbirə dəvət edilib. Bununla əlaqədar AXCP bəyanat verib. **Bəyanatda deyilir:** "AXCP ölkəmizdə demokratik islahatların həyata keçirilməsinə çalışan partiya kimi, hər zaman iqtidar-müxalifət münasibətlərinin qanunlarla tənzimlənməsinə, sivil rəqabət müstəvisinə keçirilməsinə tərəfdar olub. Təəssüflə bildiririk ki, hakimiyyətin uzun illər ərzində, davamlı şəkildə həyata keçirdiyi repressiv siyasət indiyə qədər olduğu kimi, hazırda da iqtidar-müxalifət münasibətlərinin sivil müstəviyə keçməsinə əsas maneədir. AXCP hesab edir ki, bu qədər siyasi məhbusun olduğu ölkədə sivil iqtidar-müxalifət münasibətlərinin görüntüsünü yaratmaq həqiqətlərin təhrif edilməsidir və belə təşəbbüslər cəmiyyətdə haqlı ironiya doğurur. AXCP 15 mayda həyata keçiriləcək imitasiya xarakterli tədbirdə iştirak etməyəcək. Bununla belə, açıq bəyan edirik ki, uyğun zəmin yaradılacağı və hökumət tərəfindən müvafiq siyasi iradə nümayiş etdiriləcəyi təqdirdə biz AXCP olaraq, ölkənin köklü problemlərini iqtidar və müxalifət arasında keçiriləcək real dialoqda müzakirə etməyə hazırıq".

Dialoq adlanan görüşə "Azadlıq-2015" seçki bloku da qatılacaq. Blokun Sədrlər Şurasının toplantısında görüşdə iştirak məsələsi hər bir partiyanın öhdəsinə buraxılsa da, səkkiz partiyanın hər birinin iştirak edəcəyi bildirilir.

**KXCP sədri Mirmahmud Mirəlioğlu məsələ ilə bağlı musavat.com-a bildirib ki, blokun görüş barədə bəyanatı var:** "Bəyanatda mövqeyimiz ortadadır. Partiyaların hər biri özü qərar verəcək. Tədbirdə hər şey görünəcək. KXCP isə mövqeyini öz iştirakı ilə təsdiqləyəcək". "Qarabağ bloku" da sözügedən görüşdə iştirak edəcək.

Xatırladaq ki, iqtidarla müxalifətin sonuncu görüşü fevralın 12-də keçirilib.

❑ Röya RƏFİYEVA

# "İl sonu üçün neftin maksimal səviyyəsi 90 dollar olacaq..."

## Pərviz Heydərov: "Ən real qiymətlər məhz indi təşkil edir"

**Dünya bazarında neftin qiyməti bahalaşıb. CIF bazisi üzrə İtaliyanın Augusta limanı şərtləri ilə Azərbaycanın yüngül neftinin bir barelinin qiyməti bahalaşıb. ARDNŞ-in Marketinq və İqtisadi Əməliyyatlar İdarəsindən verilən məlumata görə, "Azeri LT CIF" markalı neftin qiyməti 1,15 dollar bahalaşıb. Hazırda neftin bir barelinin qiyməti 68,58 dollardır. Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,31 dollar (0,51 faiz) azalaraq 60,19 dollar təşkil edib. ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin qiyməti 0,24 dollar (0,36 faiz) ucuzlaşaraq 66,57 dollar olub.**

Qeyd edək ki, OPEC növbəti 10 ildə neftin qiymətinin 100 dollardan baha olmayacağını açıqlayıb. "The Wall Street Journal" ən optimist ssenariyə görə neftin qiymətinin 2025-ci ildə 75 dollar səviyyəsində proqnozlaşdırıldığını yazıb.



**Ekspert Pərviz Heydərov isə musavat.com-a açıqlamasında bildirib ki, hər şey ABŞ iqtisadiyyatında inkişaf templərindən və dollardan asılı olacaq:** "Neftin dünya bazar qiymətlərində artıq xeyli müddətdir ki, sabitlik yaranıb. Belə ki, bu ilin fevral ayının ilk həftələrindən etibarən, müxtəlif markalı xam neft qiymətlərinin 50-60 ABŞ dolları arasında rəqs etməyə başlaması ucuzlaşmanın arxada qaldığını deməyə əsas verdi. Aprel ayından isə qiymətlər məlum olduğu kimi, 60-70 dollar arasında rəqs edir. Düzdür, bir çoxları neftin bu cür bahalaşması üçün heç bir əsas olmadığını bildirirlər. Və bu zaman təklifin tələbi üstələdiyini əsas arqument olaraq irəli gətirirlər. Məsələ bundadır ki, qeyd olunan amil nə qədər real xarakter daşısa da, neftin hər şeydən öncə bir iqtisadi məhsul olduğu və onun ən azından hasilat, daşınma, satış xərcləri kimi tərəfləri yaddan çıxarılır. Neftin keçən ilin iyun ayından bu ilin fevralınadək ucuzlaşması prosesi göstərdi ki, bugünkü tələblər nöqteyi-nəzərindən xam neftin qiymətinin "dib nöqtəsi" maksimum 45-50 dollar arası təşkil edir. Və bu baxımdan, ən real qiymətlər məhz indi təşkil edir. Yəni müxtəlif markalı xam neftin ən uyğun və həqiqi qiyməti əslində elə 60-70 dollar sayılır. Lakin fevraldan bəri start götürən mövcud tendensiya davam etsə, iyul-avqust aylarında qiymətlərin 70-80 arasında rəqs etməsinin şahidi ola bilərik. Lakin bütövlükdə bu ilin sonu üçün maksimal səviyyə 90, minimum isə 65-70 dollar təşkil edəcək. O ki qaldı OPEK-ə, neftin dünya bazar qiymətlərinə adıçəkilən qurumun nəzarət və təsir etmək imkanları məhduddur. Baxmayaraq ki, dünyada əsas neft hasilatçıları və ehtiyatları üzrə tanınan ölkələrin çoxu onun üzvüdür, qurum qiymətləri tənzimləyə bilmir. Qurumun qarşıdan gələn növbəti iclasında da əhəmiyyətli qərar qəbul olunacağı gözlənilmir. Halbuki OPEK-in öz üzvləri də mövcud qiymətlərə görə artıq ziyana gedirlər. Odur ki, hər şey ABŞ iqtisadiyyatında inkişaf templərindən və dollardan asılı olacaq. Dolların dəyəri ilə neftin qiyməti arasında isə tərs mütənasiblik mövcuddur: birinci möhkəmləndikdə neft ucuzlaşır, zəiflədikdə isə bahalaşır. .. Dolların dəyərinin keçən ilin aprel-may aylarından başlanan yüksəlməsi tendensiyası isə artıq bundan çox davam edə bilməz".

Qeyd edək ki, əksər ekspertlər bildirirlər ki, OPEK və digər neftlə bağlı təşkilatların qiymətlə bağlı proqnozları bədbindir. Azı on ildə neftin qiyməti yüz dollara qalxmayacaq. Səbəb çox sadədir. Çünki dünyada neftin hasilatında ciddi artım müşahidə olunur. OPEK-ə daxil olmayan ölkələrdə hasilat kəskin şəkildə artır. Paralel olaraq, Rusiya da OPEK-ə daxildir, ancaq ildən-ilə hasilatı artırır. Neftin qiymətinin düşdüyü indiki şəraitdə daha çox neft hasil etməklə qiymət endirimini az da olsa, kompensasiya etməyi düşünür. İranın bazara girmə ehtimalı da vəziyyəti dəyişir. Dünyanın müxtəlif yerlərində kəşf olunan yeni neft yataqları da bu məsələdə təsirli olacaq. Bildirilir ki, dünyada onilliklər boyu hakim olan "neft tükənir" iddiasının əksinin görünməsi neft bazarında gərginliyi azaldır. Bütün bu amillər təbii ki, yaxın illərdə neftin qiymətinin aşağı səviyyələrdə qalacağını proqnozlaşdırmağa imkan verir.

Ekspertlərin fikrincə, ümumiləşdirilən məlumatlar və araşdırmalar onu göstərir ki, neft erası, bahalı neft dövrü artıq arxada qalıb. İqtisadiyyatların böyük hissəsi neftdən asılı olan ölkələr bu barədə ciddi düşünməlidirlər.

❑ RÖYA

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015

# Əli Həsənov dünyanın xəbər nəhənglərinin rəhbərləri ilə görüşdü

## Görüşdə mətbuat azadlığı və medianın müstəqilliyinin gücləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb

**Mayın 14-də prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AzərTAc-ın dəvəti ilə Bakıda səfərdə olan Böyük Britaniyanın "Press Association" xəbər agentliyinin baş icraçı direktoru, Avropa Xəbər Agentlikləri Alyansının prezidenti Klayv Marşal və ABŞ-ın "Associated Press" agentliyinin vitse-prezidenti Con Danişevski ilə görüşüb.**



Lent.az AzərTAc-a istinadən xəbər verir ki, Əli Həsənov qonaqlara Azərbaycanda söz və məlumat azadlığının vəziyyəti, kütləvi informasiya vasitələrinin fəaliyyəti, onların inkişafına dövlət dəstəyi barədə ətraflı məlumat verib. Əli Həsənov Azərbaycanda birinci Avropa Oyunlarına hazırlıqla bağlı görülən işlər barədə danışaraq, "Bakı-2015"in rəsmi informasiya agentliyi olan AzərTAc-ın tərəfdaşları - "Associated Press" və "Press Association" agentlikləri tərəfindən də bu idman tədbirinin geniş işıqlandırılacağına əminliyini vurğulayıb. Əli Həsənov 2016-cı ildə AzərTAc-ın sədrliyi ilə Bakıda keçiriləcək V Dünya Xəbər Agentlikləri Konqresinin, habelə Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının Baş Assambleyasının yüksək səviyyədə təşkil olunması üçün Azərbaycan hökuməti tərəfindən bütün lazımi tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdırıb.

Avropa Xəbər Agentlikləri Alyansının prezidenti Klayv Marşal qeyd edib ki, bu ilin martında Bakıda keçirilmiş Dünya Xəbər Agentlikləri Şurasının iclasında Avropa Oyunlarının işıqlandırılması və Dünya Xəbər Agentlikləri Konqresinə hazırlıq məsələləri ətrafında geniş müzakirələr aparılıb. O, həm AzərTAc-ın, həm də Azərbaycanın dostları kimi medianın inkişafı, onun problemlərinin həlli və peşəkarlığın yüksəldilməsi ilə bağlı lazımi dəstəyi göstərməyə hazır olduqlarını söyləyib.

"Associated Press" agentliyinin vitse-prezidenti Con Danişevski xəbər agentliklərinin təmsilçiləri kimi Azərbaycanda medianın inkişafına və Dünya Xəbər Agentlikləri Konqresinin uğurla keçməsinə kömək göstərəcəklərini diqqətə çatdırıb, bu məsələlərlə bağlı fikirlərini bölüşüb.

Görüş zamanı mətbuat azadlığının, plüralizmin inkişaf etdirilməsi, medianın müstəqilliyinin gücləndirilməsi, dünyada mövcud olan müasir standartların tətbiqi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Şuşanın işğalını Rusiya səfiri araqla qeyd edib

## Sərxoş olan İvan Volınkin "biz həmişə bir yerdəyik" deyib


İvan Volınkin

**Mayın 9-da Ermənistanda Almaniya üzərində qələbənin 70 illik yubileyi ilə yanaşı, Şuşanın işğalının 23 illiyi də qeyd olunub. Tədbirdə Rusiyanın Ermənistandakı səfiri İvan Volınkin və Ermənistan parlamentinin yunan əsilli vitse-spikeri Eduard Şarmazanov iştirak edib. Onlar sərxoş halda kameralar önünə çıxıblar. Şuşanın işğalı ilə bağlı sərxoş halda nitq söyləyən Şarmazanovun sözləri rus səfiti İvan Volınkin tərəfindən də dəstəklənib. Volınkin bildirib: "Biz həmişə bir yerdəyik".**

Bu hadisəyə münasibət bildirən Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyi İdarə Heyətinin üzvü, deputat Rövşən Rzayev modern.az-a deyib ki, Rusiya səfirinin həmin tədbirdə iştirak etməsi heç də yaxşı hal deyil: "Çox təəssüflər olsun ki, belə bir hadisə baş verib. Rusiyanın Ermənistanda səfiri olsa da, onun həmin tədbirdə iştirak eləməsini heç istəməzdim. Ermənilər Azərbaycan torpaqlarını işğal ediblər. Təəssüflər olsun ki, düz 23 ildir Ermənistan dövləti konstruktiv mövqedən kənardadır. Eyni zamanda müəyyən dairələrdə onlar öz dəstəklərini tapa bilirlər. Bu kimi hallara görə də onlar konstruktiv mövqeyə gələ bilmirlər.

Ümumiyyətlə, bu mövqeyə görə həm region, həm də Ermənistan xalqı bu problemdən qurtara bilmir. Əgər onlar normal düşünə bilsələr, həm Azərbaycanın ərazi bütövlüyü, tarixi torpaqları qayıdar, həm də regionda inkişaf daha da sürətlənər. Ermənistan da bundan yararlana bilər. Əgər ermənilər işğal faktını qeyd edirlərsə, bu o deməkdir ki, onlar heç bir zaman uğura nail ola bilməyəcəklər. Təbii ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək. Amma nə qədər tez olsa, bir o qədər yaxşıdır".

**Deputatın fikrincə, Ermənistan Azərbaycana heç bir zaman rəqib ola bilməz:** "Sadəcə, onlara kimlərsə dəstək olduğuna görə işğalı həyata keçirə biliblər. Amma yaxın zamanlarda Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq. Onlar da öz bayramlarını, ancaq özlərinin balaca hansısa yerində qeyd edəcəklər. Düşünürəm ki, bu onlara heç də xeyr gətirməyən bir addımdır".

# Problemli kreditlər kritik həddə çatıb

## Samir Əliyev: "Əhali və sahibkarlar ödənişi dayandırıblar və Konstitusiya Məhkəməsinin qərarını gözləyirlər"

**"Bank sektoru təhlükə qarşısındadır. Problemli kreditlər kritik həddə çatıb". Bu barədə iqtisadçı ekspert Samir Əliyev açıqlama verib. O bildirib ki, Mərkəzi Bank mart ayının məlumatlarını açıqlayıb və mənzərə vəziyyətin getdikcə qəlizləşdiyini göstərir. "Bank sektoru özünün ağır dövrünə qədəm qoyub. Mərkəzi Bankın hesabatına görə, problemli kreditlərin həcmi 1,2 milyard manata çatıb. 2015-ci ilin 3 ayı ərzində belə kreditlər 24 faiz artıb.**




Halbuki kredit qoyuluşunun artımı daha az-11 faiz olub. Rəsmi məlumatlara görə, vaxtı keçmiş kreditlərin payı 5,9 faizə yüksəlib ki, bu da son 2 ildə ən yüksək göstəricidir" deyə, ekspert açıqlayıb.

**Onun sözlərinə görə, statistik məlumatlar vəziyyətin çox da kritik olmamasını göstərir:** "Ancaq reallıq başqadır. Geri qayıtmayan kreditlərin həcmi rəsmi məlumatlardan dəfələrlə çoxdur. Problemli kreditlərin payı təhlükəli həddi keçib. Bu gün ölkə üzrə problemli kreditlərin payının ikirəqəmli olmasını çəkinmədən deyə bilərik. Apardığımız müşahidələr və analizlər bu fikri təsdiq edir. Hətta elə banklar var ki, onların kredit portfelinin az qala yarısı problemlidir. Ölkənin kredit bazarının üçdə birinə sahib olan Beynəlxalq Bankın zərərli kreditlərinin həcmi ilə bağlı məlumatları göstərmək kifayətdir ki, vəziyyətin nə qədər ağır olduğunu dərk edək. Təxmini hesablamalar göstərir ki, ölkə üzrə problemli kreditlərin payı 20 faizdən çoxdur. Bu, artıq kritik həddir".

**S.Əliyev qeyd edib ki, mövcud böhranı heç də təkcə devalvasiya ilə əlaqələndirmək düzgün olmazdı:** "Problem başlanğıcını kredit portfelini sürətlə artıran bankların risk menecmentini düzgün qurmamasından götürüb. Onların ən böyüyü Beynəlxalq Bankdır. Çünki Beynəlxalq Bank illərlə qüsurlu və riskli kredit siyasəti aparıb. Bu bankın kredit portfelinin şişməsi paralel olaraq problemli kreditləri şişirdib. Mərkəzi Bankın açıqlamalarının əksinə olaraq, problemli kreditlərin istehlak yox, məhz biznes kreditlərinin hesabına artdığını həmişə vurğulamışıq. Günahkarın sadə vətəndaş yox, iri sahibkarlar olduğunu bildirmişik. Nəticə göz qabağındadır. Təbii ki, bu işdə son nöqtəni devalvasiya qoydu. Manatın dəyərini 35 faiz itirməsi dollar kreditlərinin ödəniş məbləğini birdən-birə 35 faiz artırdı. Təsadüfi deyil ki, təkcə fevral ayında dollar kreditləri üzrə problemli kreditlərin həcmi 55 faiz artdı. Banklar 5 milyard manatlıq valyuta kreditini restrukturizasiya etməli oldular. Onların müddəti uzadıldı, faiz dərəcələri bir neçə bənd aşağı salındı. Ancaq bu addım problemi həll edə bilmədi. Səbəb isə Konstitusiya Məhkəməsinin mayın 7-də nəzərdə tutulan iclası idi".

**Ekspert bildirib ki, əhalinin Konstitusiya Məhkəməsinin onların xeyrinə qərar çıxaracağı kimi ümidləri gözləmə mövqeyinə keçirtdi və bu da ödəmənin davamiyyətinə ciddi təsir göstərdi:** "Hazırda əhali və sahibkarlar ödənişi dayandırıblar və qərarı gözləyirlər. Konstitusiya Məhkəməsinin qərarının gecikməsi ödənişlərdə problemlər yaradır. Bir neçə ay öncə proqnozlaşdırdığımız vəziyyət artıq göz qabağındadır. Bank sektoru neftin ucuzlaşmasından və devalvasiyadan böyük zərbə alıb. İkinci devalvasiya bu sistem üçün öldürücü ola bilər. Kredit qoyuluşu zəifləyib. Birinci rübün nəticələri göstərir ki, əksər bankların faiz gəlirləri kəskin aşağı düşüb. Bu da onların mənfəətinin azalmasına, zərərinin artmasına səbəb olacaq. Bir tərəfdən manat qıtlığı, digər tərəfdən aktivlərin zərərinin artması bankları kredit şərtlərini sərtləşdirməyə sövq edəcək. Artıq bu tendensiya müşahidə edilir. Əziyyət çəkən isə ölkə iqtisadiyyatı olacaq".

❑ RÖYA

# Şeyxin idarəsi Ramazanla bağlı fətva hazırlayır

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Şamaxı Astrofizika Rəsədxanası tərəfindən Ramazan ayının başlanması, Ramazan bayramı, Qurban bayramı və digər dini mərasimlərlə bağlı məlumatlar Qafqaz Müsəlmanları İdarəsi və Nazirlər Kabinetinə təqdim edilib.**



Rəsədxananın direktoru Əyyub Quliyev APA-ya deyib ki, yekun təkmilləşmə başa çatandan sonra Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Ramazan Ayının başlanması ilə bağlı fətva verəcək. Onun sözlərinə görə, Ramazan ayının başlanması tarixinin açıqlanması yalnız QMİ-nin səlahiyyətinə aiddir. Bu il də idarə rəsədxana tərəfindən təqdim ediləcək hesablamalara və məlumatlara uyğun fətva verəcək.

Qeyd edək ki, bu il astronomik təqvimə əsasən, Ramazan ayının başlanmasını xəbər verən yeni Ay iyunun 16-sı saat 19:07-də təzələnəcək. Ramazan ayından sonra ayın təzələnməsi isə iyulun 16-da saat 06:26 dəqiqədə baş verəcək. Nazirlər Kabinetinin "2015-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" qəbul etdiyi qərara əsasən, bu il Azərbaycanda 17, 18 iyul tarixlərində Ramazan bayramı, 24, 25 sentyabr tarixlərində isə Qurban bayramı qeyd olunacaq. Qanunvericiliyə uyğun olaraq, həmin günlər iş günü hesab edilmir.

Xatırladaq ki, QMİ-nin bəyanatına əsasən, bundan sonra Azərbaycanda dini bayram günləri ilə bağlı fətvalar yalnız Şamaxı Astrofizika Rəsədxanasının rəyi əsasında veriləcək.

# Yəhudi icmasının liderindən "Azəriqaz"a antisemitizm ittihamı

## Semyon İxiilov: "Təəssüf ki, Azərbaycanda məişət səviyyəsində antisemitizm və ksenofobiyanın kökü hələ kəsilməyib"


Semyon İxiilov

**"Azəriqaz" QSC-nin işçisi Bakıda yəhudi jurnalistin qazını kəsərək ciddi siyasi qalmaqala səbəb olub. Belə ki, Nərimanov rayonu qaz idarəsinin işçisi dünən "Yəhudi Xəbər Agentliyi"nin (aen.ru) müxbirinin mənzilinə qaz verilişini dayandırıb.**

Bu barədə aen.ru agentliyində yəhudi icmasının liderlərindən Semyon İxiilovun adından yayılan bəyanatda bildirilir.

Məlumatda deyilir ki, qaz idarəsinin işçisi yəhudi jurnalistin evinin qazını kəsərkən bunu "gah siyasi, gah ideoloji" səbəblərlə əsaslandırıb. "Kimin qazını kəsmək istəsəm, kəsərəm" deyib.

"Nəyə görəsə aen.ru agentliyinin müxbirinin qazını kəsməyi qərara alıblar.Ya əməkdaşları ölkə vətəndaşlarına qarşı özbaşınalıqları ilə ad çıxarmış "Azəriqaz"da prinsipcə jurnalistləri sevmirlər, ya da konkret olaraq başqa dinə və etnosa mənsub olan jurnalisti sevmirlər"- bəyanatda deyilir.

"Təəssüf ki, Azərbaycanda məişət səviyyəsində antisemitizm və ksenofobiyanın kökü hələ kəsilməyib, yəhudi icmasının üzvləri müntəzəm olaraq bunun təzahürü ilə üzləşir"- agentlik əlavə edir.

İddia edilir ki, bu neqativ təzyiqlərə davam gətirməyənlər ölkəni tərk edir, qalanlar isə inanır ki, ölkə əhalisinin əksəriyyəti, dövlət və şəxsən müdrik tolerantlıq və multikulturalizm siyasəti yürüdən prezident İlham Əliyev cızığından çıxmış ksenofobların cavabını verəcək.

"Əminəm ki, həqiqət bizim hörmətli prezidentimiz İlham Əliyevin kursunu dəstəkləyənlərin tərəfindədir. İnanmaq istərdik ki, "Azəriqaz"ın rəhbəri Əkbər Hacıyev Azərbaycan prezidenti İlham Əliyevin iqtisadi-siyasi kursunu dəstəkləyir və respublikada "əjdaha dişi" səpənlərin-etnik və dini münaqişələr yaratmağa çalışanların tərəfində deyil" deyə, Semyon İxiilov bildirib.



# Məşəl bizə də gəlsin

Zamin HACI
zaminhaci@gmail.com

"Məgər mən cəngavər olduğum üçün səsləri tanıyıb bir-birindən seçməyə, bunun çəkic səsi olub-olmadığını bilməyə məcburam? Ömrümdə mən onları görmədiyim üçün nə etməliyəm? Siz yaramaz kəndçilər bunların içərisində doğulub boy atmısınız"

**(Migel de Servantes Saavedra, "Lamançlı Don Kixot")**

**Daimi oxucularımızdan Vasif Həsənov "Gəzinti çubuqları" köşəmizlə bağlı məktub yazmışdır: "Yazınızda Nazirlər Kabinetinin dağa çıxanlara prokata verilən əşyaların dövlət qiyməti əks olunmuşdu. Mən Artur müəllimin idarəsinin başqa bu tipli qərarını əldə etmişəm. Həmin qərarda gözəl vətəndaş Koroğlu adına metronun yanındakı intihar körpüsünə çıxanlar üçün bəzi şeylərin və xidmətlərin prokat qiyməti belə müəyyən olunmuşdur:**

Kəndir - 3 manat,
Sabun - 50 qəpik,
FHN-in xilasedici briqadası - 30 manat,
Hadisənin mətbuatda əks etdirilməsi - 40 manat".

Hesab edirəm ki, Artur müəllim yetərincə ədalətli, iqtisadi inkişaf səviyyəmizə uyğun preyskurant düzüb-qoşubdur, buna görə Gədəbəy rayon xalq aşıqları adından ona dərin minnətdarlığımızı bildiririk. Ancaq mən diqqət elədim, orda "deputata zəng" maddəsi hələlik yoxdur. Bunu da əlavə eləmək yaxşı olardı, qoy ermənipərəst Con Kerrinin gözü çıxsın.

İkinci bir mühüm məsələ ondan ibarətdir ki, Rusiyət prezidenti Volodya Putin "Yaramaz" kinosunun və "İspeysialnı" telekanalizasiyasının şefi, Fəxri Xiyabanda şpaqat açaraq əyilmək üzrə dördqat dünya çempionu Vaqif Van Damm Mustafayevə "Drujba" mişarı... üzr istəyirəm, medalı vermişdir. Sən demə, Vaqif müəllim rus və azərbaycanlı xalqları arasında dostluq münasibətlərini möhkəmləndirən hansısa gizli fəaliyyətlə məşğul imiş. Aldığımız xəbərə görə, medal elə Vaqif müəllimi də dərindən təəccübləndiribdir, hələ fikirləşir görəsən neyləmişəm.

Bundan başqa, bizim evə verilən mavi yanacaq tez-tez, hansısa xəbərdarlıq-zad edilmədən kəsilir. Özü də mən Allah heç qoymasa guya Təmiz Binəqədi kimi mərkəzi rayonda qalıram (qabaqlar yaşayırdım), gör indi ucqar ellərimizdə qaz nə kökdə gəlir. Ümid edirəm Transatlantik-Adriatik-Nabukkovari-Transparantik-Transvestik qaz kəmərimizin növbəti durbası bizim evin qabağından keçər, yoxsa xörək bişirə bilmirik, uşaqlar vəhşiləşib, əti çiy-çiy yeyirlər, bu isə Avropa Oyunları Respublikamızın gələcəyinə yaraşan hal deyildir. Nifrətimi bildirirəm! Con kerriyə! Hamınıza müraciət edirəm, bunun soyadını balaca hərflə yazın, qoy ölsün!

Ancaq hələlik kəmər çəkilənə qədər dövlət rəhbərliyindən acizanə xahiş edərdim Avropa Oyunlarının rayonlarda gəzdirdikləri məşəlini bizə göndərsinlər, yemək bişirib qaytaraq. Mən fikir vermişəm, bu məşəl gündüzlər rayonlarda gəzir, ancaq gecələr boş-boşuna yanır. Bax, mən də həmin gecə saatlarını nəzərdə tuturam. Bir yapist kimi pulqabıma and içirəm ki, səhər açılmamış, qancıq tayadan düşməyə imkan tapmamış məşəli lazım olan rayona çatdıraram.

Yazının sonunda isə AMEA *(Azərbaycan Milli Elmlər Akademiyası)* prezidenti Akif müəllimdən bir söz soruşmaq istəyirəm: keçən ilin noyabrında demişdiniz ki, elm şəhərciyi yaradacağıq, o söhbətin axırı necə oldu? Şəhərciyi yaradırsınızmı? Neçə ev sata bilmisiniz? Hamam-tualeti təmirlidirmi? O söhbətlə eyni gündə Azərbaycan alimlərinin Ukrayna alimləri tərəfindən Antarktidanın araşdırılmasına dəvət edildiyini də bildirmişdiniz. Nə oldu, Cənub qütbünü təzədən kəşf eləyə bildinizmi? Nəsimi bazarına pinqvin kəsib vurmaq imkanları necədir? Ümid edirəm bu elmi proseslər hamısı öz qaydasında gedir.

Bir də, çoxdandır AMEA-da növbəti alimimiz Eynşteyndə səhv tapmır, bu isə kədərli haldır, nə elmimizin inkişafına, nə Avropa Oyunlarına yaraşır. Bu işin üzərində də düşünün, Akif müəllim.

# Arif Hacılı önəmli açıqlamalar verdi

## Müsavat başqanı ölkə gündəmindəki məsələlərə aydınlıq gətirdi, partiyadaxili durumdan danışdı; "İqtidar şərtlərimizi qəbul etsə..."

**Mayın 14-də Müsavat Partiyasının qərargahında partiya başqanı Arif Hacılı mətbuat konfransı keçirdi. İlk olaraq, o, iqtidarın siyasi partiyalarla görüşü, bu görüşə Müsavatın dəvət olunması, ümumilikdə keçiriləcək görüş barədə öz mövqeyini açıqladı:**

"Bildiyiniz kimi, Azərbaycan çox ciddi proseslər ərəfəsindədir. Ölkədə Avropa Oyunları keçiriləcək. Yaxın vaxtlarda bütün dünyanın diqqəti ölkəmizə yönələcək. Ona görə Azərbaycanda fəaliyyət göstərən siyasi qüvvələr, o cümlədən Müsavat bu proseslərdən ölkəmizin mənafeləri üçün yararlanmağa çalışır. Hazırda ölkəmizdə siyasi məhbuslar əsas problemlərdən biridir. Hesab edirəm ki, bu problemin həlli ölkəmizin mənafeyinə tam uyğundur. Çünki dünyanın diqqətinin yönəldiyi vaxtda, siyasi məhbus probleminin qabardılması, demokratik islahatların aparılmaması, söz azadlığı problemi ölkəmizin imicinə ciddi zərbə olacaq. Biz hakimiyyətin diqqətini bu problemin həllinə yönəltməklə, ölkədə siyasi məhbus probleminin həllini zəruri sayırıq".

**Arif Hacılı 21-22 may 2015-ci il tarixdə Avropa Birliyinin Riqada keçiriləcək "Şərq Tərəfdaşlığı" toplantısında Azərbaycanın iştirakının vacibliyi və digər ictimai-siyasi məsələlərdən də danışdı:** "Azərbaycan "Şərq Tərəfdaşlığı" Sammitində ən yüksək səviyyədə təmsil olunmalıdır. Düşünürəm ki, ciddi siyasi islahatlara ehtiyac var. Mətbuat, "sərbəst toplaşmaq azadlığı" təmin edilməli, seçki istiqamətində addımlar atılmalıdır".

**İqtidar-müxalifət görüşünə toxunan Müsavat başqanı görüşə dəvət aldığını söylədi:** "Mövzunun əsasən Avropa Oyunları ilə bağlı olduğunu bildiriblər. Qeydiyyatdan keçən bütün siyasi partiyaların nümayəndələrinin iştirak edəcəyini qeyd ediblər. Bütövlükdə hakimiyyətin bu təşəbbüsünü müsbət qiymətləndiririk. Danışıqlar müsbət nəticə versə, cəmiyyətin maraqlarına uyğun olacaq. Amma bu dialoq deyil. Çünki mövzu hakimiyyət tərəfindən müəyyən edilir. Bu, görüşün səmərəliliyini azaldır. Cəmiyyət üçün müsbət nəticələr vermir. Bu, iqtidar-müxalifət görüşü adlana bilməz. Hakimiyyət real dialoq təşkil etsə, biz hazırıq. Təklif etdiyimiz 3 mövzunu qəbul etsələr, 15 may görüşündə iştirak edərəm. Birincisi, siyasi məhbuslar problemi həll olunmalıdır. İkinci məsələ, 21 may Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" təşəbbüsü üzrə Riqa sammitində dövlətin yüksək səviyyədə təmsilçiliyinin təmin olunması və Avropa İttifaqı ilə assosiativ sazişin ölkəmiz tərəfindən imzalanmasıdır. Biz bu məsələni hakimiyyətlə müzakirə etməyə hazırıq. İndiki mövqe yanlışdır. Televiziyaların anti-Qərb, anti-Amerika təbliğatları mənafeyimizə uyğun deyil. Azərbaycanın Rusiyanın mövqeyini susqunluqla qarşılaması yolverilməzdir. Üçüncü məsələ demokratik islahatların, o cümlədən mətbuat azadlığı, sərbəst toplaşma azadlığı və digər hüquqların təmin edilməsi, seçki islahatlarının həyata keçirilməsi istiqamətində ciddi addımların atılması ilə bağlıdır. Bu üç məsələni müzakirə etməyə hazırdılarsa, biz də dialoqa hazırıq".

**Müsavat başqanı son günlər mətbuatın əsas müzakirə mövzusu olan Müsavatdaxili məsələlərə də toxundu:** "Müsavatın demokratik şəkildə keçirilən qurultayını gözdən salmaq kampaniyası aparılır. Televiziya kanalları məsələni şişirdir. 8-ci qurultay tarixi idi. Bir çox ilklərə imza atıldı. İsa bəy üçüncü dəfə namizəd olmadı. Bu qayda bütün Qafqazda heç bir partiyada tətbiq olunmur. Demokratik seçki mühiti oldu. Televiziya kanallarının gözü qarşısında səslər sayıldı. Nümunə olduq. Biz hakimiyyətdən və digər siyasi partiyalardan bundan artıq seçki şəraiti istəmirik. Deyirlər ki, guya Müsavat avtoritar qaydada idarə olunur. Hazırda yeniləşmə prosesi gedir. Yeni-yeni insanlar rəhbərliyə gəlir. Nəsildəyişmə prosesi gedir. Bunlar da müəyyən fəsadlarla baş verir. 9 nəfər çıxarılıb, istefa verənlər 100-dən azdır. APA məlumat verib ki, guya 55 nəfər Xətaidən istefa verib. Anonim siyahıdır. Araşdırdıq, tamam yanlış məlumatdır. 7 şura üzvü göstərilir, yalnız biri şura üzvüdür. Yalnız 6-7 nəfər Müsavatla əlaqəsi olan insanın adı siyahıda var. Əvvəllər partiyadan çıxanların adı var siyahıda. Hətta bir ailənin bütün üzvlərinin adı siyahıya salınıb".

**Arif Hacılı partiyadan gedənlər barədə danışdı:** "Bizimlə bu neçə ildə fəaliyyət göstərənlərin hər birinə təşəkkür edirəm. Gedənlərə görə qalanları tənqid etmək doğru deyil. Gedənlərə görə üzülürəm. Hesab edirəm ki, fədakarlıq hamıda eyni ola bilməz. Müsavatda olan vəziyyət şişirdilir. Bəzi rayon təşkilatlarımızda problem var, yaxın vaxtlarda yoluna qoyulacaq. Müsavatın özəyində gedən problemlər belə müzakirə mövzusu olur cəmiyyətdə. Bəzi partiyaların qurultayı Müsavatın özəyi qədər müzakirə mövzusu olmur. Demokratik idarəçilik çox çətindir. Fəsadlar hesabına baş verir. Fikirlər toqquşa bilər. Müsavatda gedən proseslər demokratikliyə gətirib çıxaracaq. Partiya inkişaf edəcək. İndiyə qədər gələnlər gedənlərdən çoxdur. 300-dən artıq üzv gəlib. Yaxın vaxtlarda mətbuata siyahı təqdim olunacaq. Nədənsə Müsavata daxil olanlara maraq göstərilmir. Amma bir nəfər çıxan kimi, gündəmdə olur".

**A.Hacılı qeyd ki, indiki şərtlər çətindir:** "Partiyalara gələnlər fədakarlıq edirlər. Çünki mövcud vəziyyət xeyli dəyişib. Strukturlarımız indiki siyasi şərtlərə uyğun şəkildə qurulur. Hazırda Müsavat qərargahında aclıq aksiyası keçirilir. Regionlardan dəstək var. Siyasi məhbus problemi başlıca problemdir. Siyasi məhbuslarımızın sayı Belarusdan çoxdur".

**Müsavat başqanı çıxışından sonra jurnalistlərin suallarını cavablandırdı.**

**Mühacirətə gedənlərə dair suala Müsavat başqanı belə cavab verdi:** "Partiyaya daxil olan şəxsin gedib-getməycəyini müəyyənləşdirmək çox çətindir. Gedənlər əksərən gənclərdir. Adlarını təmiz saxlamaq istəyən gənclər ölkəni tərk edirlər. Normal fəaliyyət göstərə bilmirlər. Bu, qlobal problemdir. Təkcə Müsavatdan yox, digər partiyalardan da gedənlər var. Sui-istifadə halları olur. İşsizliyin fəsadlarıdır".



**"Müsavat qardaşlar partiyasıdırmı" sualına cavabında A.Hacılı bunları dedi:** "Qardaşım Mustafa Hacıbəylinin böyük xidmətləri var. Hakimiyyətə qarşı hansı ittihamları irəli sürürüksə, "Rifahçılar" bizə qarşı eyni ittihamları səsləndirirlər. Fəxr edirəm ki, qardaşlarım demokratik düşərgədədirlər. Müsavat qardaşlar partiyası deyil. 2003-də 34 qohumum məsuliyyətə cəlb olunmuşdu. Mustafa bəy İsa Qəmbərin müşaviri olub. Qardaşlarım daim mübarizədə olublar. Hakimiyyətə xidmət edənlərin Müsavatı qardaşlar partiya adlandırmaları ədalətsizlikdir".

**Müsavat başqanı onu günahkar sayanlara belə cavab verdi:** "Müsavat başqanıyam. Bütün məsuliyyət mənə aid edilir. Normaldır. Daima hədəfdəyəm. Ən çox təzyiqə məruz qalan siyasətçilərdən biriyəm. Azərbaycanda son icazəsiz aksiya Müsavatın qərargahı qarşısında olub. Etiraz edənlərdən üç nəfər partiyadan çıxarılıb. Bu, aksiya ilə bağlı deyil. Piketdən əvvəl məsələ gündəmə çıxarılmışdı. Onlar dəfələrlə partiya əleyhinə təhqir, şər- böhtanlar səsləndiriblər. Çıxarılanların içərisində hakimiyyətlə əlaqələri olanlar da ola bilər. Açıq şəkildə görünür ki, hakimiyyət buna dəstək olur".

**Hakimiyyətlə dialoqa dair sualı isə Müsavat başqanı belə cavablandırdı:** "Dediyimiz mövzu dialoqda olmasa, iştirak etməyəcəyik. Hakimiyyət Qərbdən çəkinmədiyini nümayiş etdirmək istəyir. İqtidarın müxalifətlə görüşmək təklifini pozitiv addım kimi dəyərləndirirəm.

Seçkilərdə iştirak edəcəyik. 70 -ə yaxın dairədən namizədlərlə bağlı müzakirələr yekunlaşıb".

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015

## İqtidar sərhədlərə nəzarəti daha da gücləndirib

# "Oliqarxgeyt" işində yeni sensasion məlumatlar

## Hava limanındakı "xüsusi nəzarət qrupu"na ölkədən çıxmaq istəyən biznesmenləri, onların yaxın adamlarını yoxlamaq, sorğu-suala tutmaq, hətta ölkədən buraxmamaq səlahiyyəti verilib; gömrükdən üç rəisin çıxarılmasına səbəb nədir?



**Beynəlxalq Bankdan kredit alan iş adamları ilə bağlı başlanmış istintaq günlər keçdikcə "oliqarxgeyt" prosesinə çevrilir. Demək olar ki, hər gün kimlərinsə istintaqa çağırılması, həbslərin davam etməsi barədə xəbərlər yayılır. İş adamlarının həbsi barədə yayılan məlumatların fonunda hüquq-mühafizə orqanları susmaqda davam edirlər.**
**Məlumatlara görə, bu susqunluğun səbəbi istintaqın miqyası ilə bağlıdır və "oliqarxqeyt" işi üçün DİN və Respublika Prokurorluğu birgə istintaq qrupu yaradıb.**

Qrupa hər iki tərəfdən hüquq-mühafizə strukturlarının rəhbərləri nəzarət edir. Belə bir ehtimal var ki, rəsmi məlumatın yubanmasına səbəb Beynəlxalq Bank işi ilə bağlı mənzərənin tam aydınlaşmamasıdır, üstəlik, xeyli şübhəlilər də var ki, onları əvvəlcədən xüsusi təlaşa salmaq istəmirlər. Bəzi ekspertlər isə güman edirlər ki, biznesmenlərə qarşı "yumşaq güc"dən istifadə olunacaq. Onlar "oğurladıqları" pulları geri qaytarmaqla xilas ola biləcəklər.

Redaksiyamıza verilən xəbərə görə, bu həftənin əvvəlindən başlayaraq Heydər Əliyev adına beynəlxalq hava limanına "xüsusi nəzarət qrupu" göndərilib. Bu qrupa ölkədən çıxmaq istəyən iş adamlarını, onların ailə üzvlərini, yaxın qohumlarını yoxlamaq, sorğu-suala tutmaq, hətta ölkədən buraxmamaq səlahiyyəti verilib. Mənbə deyib ki, bu qrupda "qara siyahı" da var və aeroportdan çıxmaları mümkünsüzdür.

Qaynağımızın daha bir sensasion xəbəri mayın 13-də ölkənin sərhədlərində üç gömrük rəisinin qəfil sərəncama göndərilməsinin səbəbləri ilə bağlıdır. Xəbər verildiyi kimi, Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev mayın 13-də Astara, Xaçmaz və Biləsuvar rayonlarının gömrük idarələrinin rəisləri- Ədalət Hüseynəliyev, Elçin Quliyev və Sahib Axundovu işdən çıxarıb. A.Əliyev rəisləri işdən azad etməsinin səbəblərini rotasiya ilə izah edib. Amma işdən çıxarılanların rotasiya ilə niyə yenidən vəzifəyə yox, sərəncama göndərildiklərini açıqlamayıb. Saytlardan biri işdən çıxarılan hər üç gömrükçünün Naxçıvanın Nehrəm kəndindən olması faktına diqqət çəkib. Bizim mənbə isə deyib ki, sərhədlərin möhkəmləndirilməsi yuxarıdan gələn əmrdir və istintaq altında olan Hacı İbrahim Nehrəmli ilə əlaqəsi yoxdur. **"Sərhəd Qoşunlarına və Gömrük Komitəsinə tapşırılıb ki, xüsusilə Rusiya sərhədindən ölkədən çıxanlara nəzarət daha da gücləndirilsin, etibarlılıq artırılsın. Xəbərə görə, sərhəddən bəzi adamların "sızmaları" ilə bağlı siqnallar alınıb".** Mənbə deyib ki, yeni təyinatlar da əslində dəyişikliyin rotasiyaya aidiyyəti olmadığını göstərir. **"Xaçmaz Gömrük İdarəsinə rəisi təyin edilən Azər Məmmədov (o sabiq təhsil naziri Misir Mərdanovun kürəkənidir) əvvəl də kifayət qədər yüksək vəzifədə - Hava Nəqliyyatında Baş Gömrük İdarəsi rəisinin birinci müavini işləyib. Fövqəladə Hallar Nazirliyinin generalı İlham Abdullayevin qardaşı Biləsuvar Gömrük İdarəsinə rəis təyin edilib. Bu təyinatlar onu göstərir ki, iqtidar gömrüyü daha etibarlı əllərə verir"**, - deyə, qaynağımız bildirib.

Medianın ciddi önəm verdiyi bu mövzunun cəmiyyətdə doğurduğu effekt iqtidar dairələrində birmənalı qarşılanmayıb. Telekanallara həbslərlə bağlı məlumat verməmək tapşırılıb, iqtidar qəzetləri də bu mövzuya toxunmurlar. Parlamentin bu gün keçiriləcək iclasında da bu mövzunun xüsusi gündəmə gətirilməsinə ehtiyac olmadığı deyilib.

❑ **Xəbər xidməti**

# SOCAR 750 min dollar ittihamına cavab verdi

## "Washington Post" nəşrində dərc olunan məqalə ilə əlaqədar bəyanat yayıldı




**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ABŞ-ın "Washington Post" nəşrində dərc olunan "SOCAR-ın 2013-cü ilin mayında Bakıda keçirilən konfransdakı məxfi rolu" adlı məqalə ilə əlaqədar bəyanat yayıb.**




**Bəyanatda deyilir:**

"Biz "Washington Post" nəşrində dərc olunmuş "SOCAR-ın 2013-cü ilin mayında Bakıda keçirilən konfransdakı məxfi rolu" adlı məqalə ilə əlaqədar ciddi narazılığımızı ifadə edirik.

SOCAR heç vaxt konfransdakı iştirakını gizlətməyib və məqalədə qeyd olunduğu kimi, SOCAR-ın loqosu və adı Bakıda keçirilən konfransda əks olunub. SOCAR qeyd olunan məsələ ilə əlaqədar heç vaxt təhqiqatın obyekti olmayıb. Çünki SOCAR-ın Bakıda keçirilən konfransın maliyyə sponsoru olması faktını ictimaiyyətə səfəri təşkil edən sponsorlar bildirməli idilər.

Biz təhqiqat ərzində tam əməkdaşlıq etmişik. Səfər təşkilatçılarının qaydalara əməl etməməsi təəssüf doğurur və bu məlumatların niyə açıqlanmaması bizə aydın deyil. SOCAR məsələnin aydınlaşdırılması üçün köməkliyini göstərməyə hazırdır və yerləşdiyi mühüm regionla əlaqədar qanunverici orqanları təmsil edən şəxslərin iştirakı ilə keçiriləcək tədbirlərə sponsorluq etməyi səbirsizliklə gözləyir".

Qeyd edək ki, "The Washington Post"un iddiasına görə, SOCAR 10 konqresmen və 32 heyət üzvünün 2013-cü ildə Bakıda keçirilən bir konfransda iştirakları üçün bütün səfər xərclərini ödəyib.

Qəzetin yazdığına görə, "İştirakçılar arasında prezident Barak Obamanın keçmiş yüksək səviyyəli yardımçılarından da 3 nəfər olub. Konqresmenlər və onlarla birlikdə səfərdə iştirak edənlərə yüz minlərlə dollar səfər xərcləri, ipək şərflər, xrustal çay dəsti və dəyəri 2 500-dən 10 000 dollara qədər olan Azərbaycan xalçaları verilib. Səfərdə konqresmenlərin bəzilərinin xanımları da iştirak ediblər. Səyahət sənədlərinə görə onların təyyarə biletlərinə 112 899 ABŞ dolları ödənib. SOCAR səfərin 750 000 dollarlıq xərclərini gerçək maliyyələşmə mənbəyini gizlətmək üçün ABŞ-da yerləşən qeyri-hökumət qurumlarından biri vasitəsilə ödəyib".

# Əvvəlcə kəsir, sonra sayırlar...



**Hüseynbala SƏLİMOV**

**Adətən insanlar hər şey haqqında onun nəticəsinə görə mülahizə yürütməyi sevirlər. Principcə, sən çox əlləşib-vuruşa bilərsən, amma bunun ciddi bir nəticəsi olmayacaqsa, onlar ən yaxşı halda sənə acıyacaq, ən pis halda isə səni bir "nooolsun?!" kəlməsi ilə mükafatlandıracaqlar...**

Bunu niyə dedik? Üstündən bir xeyli müddət keçsə də, arabir adamın yadına "Azadlıq" qəzetində işlədiyi dövrlər düşür. Bəli, biz onda cəmiyyətimizi azad etmək istəyirdik, amma heç özümüz azad ola bilmədik. Bu, öz yerində. Güman edirəm ki, etiraf bizə qarşı acığı azacıq da olsa azaldar...

O vaxt maraqlı hadisələr olurdu. Biri də 90-cı illərin əvvəlində baş vermişdi və onu mən tez-tez xatırlamalı oluram, çünki bəzən insanlar "Əşşi, o vaxtlar bundan yaxşı idi!" desələr də, əslində heç nə dəyişməyib, elə o vaxtlar da belə idi, bəlkə də daha pis idi...

Qərəz, həftə səkkiz, mən doqquz, hər yanda axtarış aparırdılar. Bir gün qəzetlərin redaksiyasında, bir gün də partiya qərargahlarında... Belə axtarışlardan biri təzəcə olmuşdu. Düşündük ki, nə edək, nə etməyək, necə və nə yazaq, axırda belə qərara gəldik ki, özümüz heç nə yazmayaq, çünki senzuranın qılıncının dalı da, qabağı da kəsirdi, nə yazsaydıq çıxardacaqdılar. Axırda qərara gəldik ki, Ə.Haqverdiyevin "Bomba" hekayəsini necə var, nöqtəsinə-vergülünə toxunmadan qəzetdə dərc edək...

Nə başınızı ağrıdım, axşam qəzetin təzə nömrəsini götürüb senzuraya yollandıq. Senzor hekayəni nömrədən çıxardı. Dedi ki, olmaz. Nə qədər dedik ki, əşi, bu, Ə.Haqverdiyevdir, onu hətta sovet dövründə də dərc edirdilər, senzor dedi ki, olmaz ki, olmaz...

Səhəri gün yenə də həmin hekayəni təzə nömrədə yerləşdirdik. Dedik bəlkə bu dəfə sovuşdu. Amma yenə də eyni hadisə təkrar olundu... Qərəz, beləcə, bir neçə gün cəhd etdik, amma Ə.Haqverdiyevin "Bomba" hekayəsini dərc edə bilmədik ki, bilmədik... Özü də təsəvvür edin kimi? Ə.Haqverdiyevi! O adamı ki, sovet dövründə az qala hamı onu əzbər bilirdi...

Bunları niyə deyirəm? Bilmirəm, beş ay olar, altı ay olar, bəlkə də daha çox olar, amma ölkədə yenə də əsl "əcinnə ovu" gedir: gah burada axtarış aparırlar, gah orada, gah buranı möhürləyirlər, gah da oranı, gah bu QHT-ni bağlayırlar, gah o biri QHT-ni...

Balam, nə olub? Nə baş verir? Səbəbi nədir? Heç kim bilmir... İnandırıram sizi ki, heç bunları edənlərin özləri də əməlli-başlı bilmirlər ki, nə baş verir?!

Onsuz da Azərbaycanda hamı buna alışıb: bu ölkədə əvvəlcə adamı tuturlar, sonra ona maddə tapır, "iş tikirlər"... Bəli, elə lap bir lətifədə deyildiyi kimi: əvvəlcə kəsir, sonra sayırlar...

Bu Avropa oyunları ərəfəsində isə siyasət lap əməlli-başlı isterik forma alıb: gündə bir bəyanat verirlər ki, bəs filan təşkilat, nə bilim, filan əcnəbi oyunları boykot etməyə çağırıb...

Vallah, özümüzü həddən ziyadə məlumatlı adam da hesab etmirik, amma olub-keçəndən azacıq bizim də xəbərimiz var...

İnkar etmirəm ki, prinsipcə, belə bir şey ola bilər. Adətən dünyada hüquq-müdafiə təşkilatları, yumşaq şəkildə desək, o qədər də yaxşı siyasi reputasiyaya malik olmayan siyasi sistemləri böyük tədbirlər ərəfəsində boykot etməyə çağırırlar. Özü də bu, təkcə Azərbaycanla bağlı deyil, o ölkələr ki, onlar həqiqətən də problemlidir, onların hamısı belə münasibətə tuş gəlir...

İndi hüquq müdafiəçilərinin dediyinə görə, ölkədə azı 10-15 siyasi məhbus var, özü də əvvəlki illərdən fərqli olaraq onların arasında çox tanınmış insanlara rast gəlmək mümkündür. Bu insanların böyük qismi bu vaxta qədər çox fəal olublar, beynəlxalq təşkilatlarla daim təmasda olublar, tədbirlərdə fəal iştirak ediblər. Heç mümkündürmü ki, beynəlxalq təşkilatlar da həmin adamları indi müdafiə etməsinlər?..

Bəs vəziyyətdən necə çıxmaq olardı? Çox sadə yolu var. Böyük idman tədbirləri həm də böyük bayramdır. Avropa oyunları ərəfəsində həmin siyasi məhbusları azad etmək olardı. Dedik ki, sayca onlar elə də çox deyil, təxminən 15 nəfər olar...

Doğrusu, mayın birinci on günlüyündə əfv olacağını düşünürdük. Amma olmadı. Elə olanda da adamın qanını qaraltmaqla məşğul olurlar - iki-üç siyasi məhbusu digər cinayətkarların cərgəsinə qataraq əfv edirlər, adına da deyirlər ki, "humanist addım"...

Amma bununla da barışmaq olar. Yetər ki, siyasi məhbuslar həqiqətən də azad edilsin... Hələ vaxt var. Oyunların başlanmasına təxminən bir ay qalıb...



# Hərbi çevrilişin son qiymәti: “Haram olsun!”

Xalid KAZIMLI

**Bu gün prezident Ayaz Mütəllibovun vəzifəsindən ikinci dəfə uzaqlaşdırıldığı gündür. AXC-nin həyata keçirdiyi bu üsyanın 23-cü ildönümüdür. 20 gündən sonra isə AXC iqtidarının özünə qarşı təşkil edilmiş qiyamın 22-ci ildönümü olacaq.**

Üsyan, qiyam, çevriliş, devrilmə... Uzun illər öncə bu terminlər gündəlik leksikonumuza daxil idi. Bu gün də dilimizdədir. Hələ də üsyanlardan, qiyamlardan danışırıq.

Türkiyədə 35 il öncə həyata keçirilmiş ən böyük hərbi çevrilişin baş adamı Kənan Evrenin bu günlərdə ölməsiylə əlaqədar bu kimi istilahlardan istifadə intensivləşib.

Üstündən uzun illər keçəndən sonra qiyama, çevrilişə daha soyuqqanlı və obyektiv qiymət vermək olur. İsti-isti mümkün deyil. Siyasi ehtiraslar ədalətli olmağa imkan vermir.

Budur, Kənan Evren 98 yaşında, ömürlük həbsə məhkum edilmiş halda öldüyündə belə onun törətdiyi əmələ emosional reaksiyalar verildi, ona lənət oxundu, dəfni zamanı dini ayin icra edilərkən xoşagəlməz replikalar (“haram olsun, haqqımızı halal etmirik” və s.) səsləndi, köhnə sandıqlar açıldı, qanlı pambıqlar töküldü, küçələrdə qol götürüb oynayanlar, Evrenin ölümünü bayram edənlər oldu.

4 iyun qiyamını həyata keçirən Surət Hüseynov öləndə də elə olacaq.

Türkiyə xalqı Kənan Evreni ona görə bağışlaya bilmədi ki, o, milyonlarla insanın taleyini şil-şikəst etmişdi. 1980-ci ildən sonra yüz minlərlə adam işgəncə maşınından keçirilmiş, məhbəslərə salınmışdı, mindən artıq adam məhkəmə qərarı ilə və ya işi məhkəməyə yetişmədən öldürülmüşdü, yüz minlərlə şəxs işlərindən qovulmuşdu və sair və ilaxır.

4 iyun qiyamının nəticələri bundan ağır deyildi. Amma bu xalq da 4 iyun qiyamında Prezident Qvardiyasının igid əsgərlərinin namərdcəsinə qətlə yetirilməsini, qiyamdan dərhal sonra Qarabağ rayonlarının bir-biri itirilməsini, təcrübəsiz və saf hakimiyyətin yerində korrupsiyaya və mahalbazlığa dayanan rejimin bərqərar olunmasını Surət Hüseynova bağışlamayacaq.

Kənan Evrenin özünə bəraət qazandırmaq üçün müəyyən əsasları vardı, sonrakı illərdə deyirdi ki, ordu mülki hakimiyyəti qəsb etməsəydi, Türkiyə dağıla, yad ideologiyalarla işğala məruz qala bilərdi. Bu məsələdə o haqlıdır.

1980-ci ildə beynəlxalq vəziyyət olduqca gərgin idi. ABŞ və SSRİ-nin rəhbərlik etdikləri kapitalizm və sosializm düşərgəsinin arasında gərginlik son həddə dirənmişdi. Hər iki tərəf öz regionundakı ölkələrdə hərbi-siyasi çevrilişlər təşkil edirdi.

Əfqanıstan SSRİ tərəfindən işğal olunmuşdu. İranda islam inqilabı baş vermişdi və minlərlə sovet tankı Araz boyunca sərhəddə durub İrana müdaxilə etmək üçün işarə, çağırış gözləyirdi. Nikaraquada kommunistlər uğurlu partizan müharibəsi apararaq hakimiyyəti götürmüşdülər. Kambocada sosialist inqilabı həyata keçirilmişdi. Polşada “Solidarnost” təşkilatı kommunist rejiminə dirəniş göstərmişdi və Polşada iplər qopmuşdu. Misirdə prezident Ənvər Sadat sui-qəsd nəticəsində öldürülmüşdü, yerinə Hüsnü Mübarək keçmişdi.

Bir sözlə, dünyanın qarışıq vaxtıydı, SSRİ hərbi-siyasi çevrilişlərlə dünyanı sosialistləşdirmək əzmindəydi. Belə bir zamanda Türkiyədə kommunist hərəkatı heç vaxt olmadığı qədər vüsət almışdı. Hazırda türklər özləri də etiraf edirlər ki, ölkə sağ-sol ideolojisinə tapınan gənclərin savaş meydanına çevrilmişdi və hər gün siyasi zəmində baş verən qovğalarda onlarla adam öldürülürdü, ölkəni xaos bürümüşdü. Belə bir zamanda hansısa qüvvə vəziyyətə nəzarəti götürməliydi və tarixi missiya ordunun, Kənan Evrenin boynuna düşdü.

O, Türkiyəni siyasi xaosdan qurtardı, amma iqtisadi xaosa sürüklədi, regional təhlükəsizliyini təmin etdi, ancaq beynəlxalq nüfuzuna zərbə vurdu, xalqın bir-birini qırmasının qarşısını aldı, amma özü qırdı. Sadəcə, Kənan Evren nə qədər ədalətsizliyə, qəddarlığa, qansızlığa yol versə də, bir şeyi etmədi: xalqın sərvətini oğurlamadı, yaxınlarına, övladlarına milyardlar toplamadı, hakimiyyətdən beş əlli yapışmadı, zamanı gələndə yerini mülki hakimiyyətə ötürüb təqaüdə getdi.

Türkiyənin Pinoçetinin axırı lap pis gəldi, uzun yaşadı və urvatsız dəfn edildi.

Surət Hüseynov isə hakimiyyətə urvatsız gəldi, urvatsız işlədi, rüsvayçılıqla qovuldu, biabırçılıqla qonşu ölkədən alınıb ölkəyə gətirildi, mühakimə edildi, indi də bir tərəfdə şan-şöhrətsiz ömür sürür. Ancaq onun önündə hələ iki mühakiməsi var. O da Gəncədə öldürülən insanlar üçün nə vaxtsa cavab verəcək. Bir də son mənzilə “haram olsun” sədaları ilə gedəcək.



# Kürdəxanıda qorxu filmi kim intiharlar

## Qəsəbədəki 113 nömrəli məktəbin şagirdlərindən dördünü intihara aparan sirr nədir?

**Bakının Sabunçu rayonu, Kürdəxanı qəsəbəsində son bir neçə ay ərzində eyni məktəbdə oxuyan dörd şagird özünü asmaqla intihar edib. Ölkədə böyüklər arasında intiharların adiləşdiyi, canına qəsd edənlər arasında yeniyetmələrin, hətta azyaşlı məktəblilərin artdığı bir vaxtda eyni məktəbdən olan dörd şagirdin (müxtəlif vaxtlarda olsa da ) intiharı haqda xəbərlər eşidənləri şoka salıb.**

Qəsəbədəki 113 nömrəli məktəbin şagirdlərindən Ceyhun Əliyevi ötən il dekabrın əvvəlində, 10-cu sinif şagirdi Əli Məmmədovu fevralda, 6-cı sinif şagirdi Ruslan Həsənovu isə bu ilin aprel ayında asılmış vəziyyətdə tapıblar. Bunlar intihar edənlərdən üçünün adlarıdır. Virtualaz.org saytının məlumatına görə, qəsəbə sakinləri arasında dolaşan şayiələrə görə əslində intihar edənlərin sayı 5 nəfərdir. Onlardan biri qızdır, əvvəllər 113 nömrəli məktəbdə oxusa da intihardan əvvəl məktəbi dəyişib və qonşu Məhəmmədi kəndindəki məktəbə keçib. Püstə adlı qızın həmin qəsəbədə intihar etdiyi deyilirdi.

Eyni məktəbdən cəmi bir neçə ay ərzində 3, yaxud 4 şagirdin intihar etməsi məlum olanda bütün diqqətlər 113 nömrəli məktəbə yönəlir. Axı bu məktəbdə nə baş verir? İntiharların məktəblə hansısa bağlılığı var idimi?

Virtualaz.org-un əməkdaşı kənddə olub. Onunla söhbət edən azyaşlılar sonuncu intihar edən Ruslan haqda danışıblar. “Mən onu bir gün əvvəl məktəbdə görmüşdüm. Ertəsi gün eşitdim ki, özünü asıb” - 6-cı sinif şagirdlərindən biri deyib.

Boyuna görə sinif yoldaşlarından seçilən Ruslanın doğum tarixi 2003-cü il göstərildiyindən 6-cı sinifdə oxuyurmuş, ancaq məktəbin direktorunun mətbuata verdiyi açıqlamadan məlum olurdu ki, anası onun əslində 1999-cu il təvəllüdlü olduğunu deyib.

**Məktəbin direktoru Şirin Abbasov deyib ki, intihar xəbərlərinin bu cür ictimailəşməsi mətbuatdan ona çoxsaylı müraciətlərə səbəb olub. Bakı Şəhər Baş Təhsil İdarəsi isə ajiotajın böyüdüyünü görərək direktora mətbuata açıqlama verməyi qadağan edib. Direktor deyib ki, hadisəni mətbuatda şişirdilmiş təqdim ediblər, müxtəlif şayiələrə əsaslanıblar. Eyni zamanda deyib ki, bu hadisə haqda açıqlamanı ancaq Bakı Şəhər Baş Təhsil İdarəsi verə bilər:** “Mənim icazəm yoxdur danışmağa, nə mümkünsə artıq demişəm, bu hadisələrin heç birinin məktəbə dəxli yoxdur, hamısı dərsdən sonra baş verib, heç bir sualınıza cavab verə bilmərəm”.

**Əslən kürdəxanılı olan taksi sürücüsü deyib ki, o da intiharlar haqda eşidib və narahatdır, ancaq bildiyinə görə, intihar edənlərin heç biri bu qəsəbədən deyil. Sonradan gəlib məskunlaşanlardır. Qəsəbədəki təcili yardım stansiyasının işçiləri isə deyiblər ki, onlar intihar edən şagirdlərlə bağlı çağırışlara gediblər. Ancaq intiharların səbəbləri haqda heç nə bilmirlər.** “Deyilənə görə, onlardan birinin ailəsi kasıb olduğu üçün ona istədiyi paltarı ala bilməyib, uşaq da özünü asıb. Digərinin radikal dini cərəyanın təsiri altına düşdüyü deyilir. Hər halda, belə söhbətlər eşitmişik, nə dərəcədə düzdür, deyə bilmərik. Biz həmin uşağın yaxınlarından birinə yardım göstərməyə getmişdik, hadisədən sonra halı pisləşmişdi”-təcili yardım işçilərindən biri deyir. Bəs qalan intiharların səbəbləri? Təcili yardım işçilərindən bu haqda heç nə biləni yoxdur.

İntihar edənlərdən Ruslan Həsənovun ailəsi Sabirabad rayonundandır, Kürdəxanının yeni salınmış yaşayış massivində yeni









tikilmiş, hələ təmir olunmamış evdə yaşayırlar. Hadisə aprel ayında olub, Ruslanın qırxı hələ çıxmayıb. Evin darvazasına qırmızı və qara lenti qoşa bağlayıblar.

**Ruslanın valideynləri onun intihar etdiyinə heç cür inanmır, inanmaq istəmir. Ruslanın anası Tünzələ Həsənova:** “Ölümündən bir neçə gün əvvəl dedi ki, məktəbə iki oğlan gəlmişdi. Dedi ki, ana, həmin oğlanlar mənə onlarla işləməyi təklif etdilər. Dedim ki, oğlum, sənin işləməyə ehtiyacın yoxdu. Dedi, məndən cavab gözləyirlər, mən də işləmək istəməyəcəyimi söyləyəcəm. Aprelin 18-də-şənbə günü məni yuxudan oyatdı. Tələsirdi, məktəbdə kimsə gözləyirdi. Sonra da uşaqlarla futbol oynayıblar. Axşam asılmış vəziyyətdə tapdıq”.

**Ruslanın atası Akif Həsənli də deyir ki, həmin gün Ruslanla bir yerdə olan uşaq məktəbdə tanımadıqları iki kişinin olduğunu görüb. Ruslan da qapıdan çıxanda anasına məktəbdə onu gözləyəcəklərini söyləyib:** “Hər gün 6-ya 15 dəqiqə işləmiş evdə olurdu. Şənbə günü dərs olmadığından uşaqlarla futbol oynayıb. Saat 2-də evə qayıtmalı idi. Axşama kimi axtardıq, axşam evin arxasındakı boş daxmadan asılı vəziyyətdə tapdıq. Ruslanın boyu hündür idi. Boğazından bir neçə yara almışdı. Evin hündürlüyü cəmi 180 sm olub. Ruslanın boyu ilə tavanın hündürlüyü arasında 4 santimetr məsafə vardı. Üstəlik, məftil onun ağırlığını götürə bilməzdi. Ruslan asılmaqdan daha çox divara söykənmiş vəziyyətdə idi. Mən əvvəlcə görəndə qorxudan gizləndiyini düşündüm”.

**Ata deyir ki, bir müddət əvvəl məktəbin digər şagirdi Ceyhun da özünü asaraq intihar edib:** “Ötən il dekabrın əvvəlində Ceyhun intihar etmişdi. *(Qeyd: Dekabrın əvvəlində Kürdəxanı qəsəbə sakini, 1998-ci il təvəllüdlü Əliyev Ceyhun Zaur oğlu özünü yaşadığı evin həyətindəki su çəninin borusundan mələfə ilə asıb)* Dedilər ki, məktub yazıb, sevdiyi qıza görə özünü öldürüb. Sonra qəsəbədə Ceyhunun vəhabilərin təsirinə düşdüyünü dedilər. Ruslana Ceyhunun ölümü pis təsir etmişdi, deyirdi ki, Ceyhun atasının belini qırıb, gərək özünü öldürməyəydi. Evimizdə də ölümdən söhbət getmirdi, əksinə, yaxın qohumun toyuna hazırlaşırdıq. Özünə bazarlıq edəcəkdi, toya hazırlaşırdı. Bəlkə də uşaq kiminsə təsirinə düşüb, yoldan çıxarıblar”.

**Akif Həsənov məktəbdə daha bir intihar hadisəsini də xatırladıb:** “Fevralın 6-da da 10-cu sinif şagirdi Əli Məmmədov intihar etmişdi. İndi məktəbdə bir-biri ilə dalaşanlar intihardan danışırlar. Görürsən ki, fiziki baxımdan güclü şagird nisbətən zəifi yıxır, sonra deyir ki, ”kişisən get özünü as"".

**Ata Ruslanın intiharı ilə bağlı sonadək araşdırma aparacaqlarını söyləyib. Deyib ki, Ceyhun musiqiçi idi, müsabiqədə birinci yeri tutmuşdu. Bəs Ruslanla iş haqda danışan iki naməlum şəxs kim olub? Ruslanın dostlarından heç kim onları tanımır.** “Elə bil bütün uşaqları qorxudublar. Onların dediklərini müstəntiqə də söyləmişəm. Məktəbə yad adamlar gəlir, uşaqlara iş təklif edirlər, təbliğat aparırlar. Uşaqları hara isə aparmaq istəyiblər. Məktəbin nəzarətçisi, kamerası yoxdur. Kənddə o qədər şayiələr gəzir ki... Bir məktəbin 4 şagirdi niyə intihar edir? Uşaqlarımızı yoldan çıxaranlar tapılsın. Ekspertizanın rəyindən sonra baş prokuror Zakir Qaralova müraciət edəcəm”.

**Ruslanın əmisi də bu qəsəbədə yaşayır, azyaşlı uşağı 113 saylı məktəbdə oxuyur. O deyib ki, dalbadal baş verən bu intiharların arxasında nəyin dayandığını araşdırıb ortaya çıxaran yoxdur:** “Müstəntiqə deyirik, cavab verirlər ki, araşdırırlar. Necə araşdırırlar? Deyirəm, gəlin məktəbə, uşaqlarla söhbət edin, müəllimlərlə söhbət edin, araşdırın görün bu məktəbdə hansı atmosfer var ki, şağirdlər bir-birinin ardınca intihar edir. Deyirlər, vaxt yoxdur, olanda gələrik”

Maraqlıdır ki, intihar edən uşaqların hər üçü fiziki baxımdan cüssəli olub. Şagirdlərdən biri qonşunun daxmasında, digərləri isə öz həyətlərində asılmış vəziyyətdə tapılıblar. Hər üç hadisə şənbə günü və axşam saatlarında baş verib. Ruslan Həsənovun ölüm işini araşdıran müstəntiq Günay Məmmədova hadisə ilə bağlı istintaqın davam etdiyini, hələlik nəticənin olmadığını bildirib. Sabunçu Rayon Prokurorluğundan isə bildiriblər ki, hər üç şagirdin ölümü ilə bağlı Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə (Özünü öldürmə həddinə çatdırma) cinayət işi açılıb və istintaq davam edir.

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Bir həftə sonra Avropa Birliyinin (AB) "Şərq Tərəfdaşlığı" Sammiti öz işinə başlayacaq. Artıq bəllidir ki, sammitdə Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyann da iştirak edəcəklər. Doğrudur, onlar arasında Dağlıq Qarabağla bağlı görüş olacağı haqda məlumat yoxdur. Bununla belə, AB rəsmisi bunu istisna da etməyib və bildirib ki, qurum hər zaman münaqişə tərəfləri arasında ən yüksək səviyyədə təmasların tərəfdarıdır, çünki bu, ən azından müharibə riskinin azalmasına xidmət edir.**



# Riqa sammiti Qarabağ məsələsinə yeni nəfəs verə bilər

## Avropa Birliyi sülh danışıqlarında birbaşa iştirak etməsə də, Ukrayna nümunəsi göstərdi ki, onun işğalçı ölkələrə ciddi təsir rıçaqları var; politoloq: "Minsk Qrupu və Ermənistanın davranışı regionu müharibəyə sürükləyir..."

O da var ki, AB və onu qanunverici orqanı olan Avropa Parlamenti Qarabağ nizamlanmasında birbaşa iştirak eləmir, danışıqlar prosesində adətən ATƏT-in Minsk Qrupunun (MQ) mövqeyini dəstəkləyir. Ancaq məsələ də ondadır ki, Minsk Qrupu bir çox ekspertlərin də etiraf etdiyi kimi, artıq tükənib. Atəşkəsdən keçən 21 ildə bu format çərçivəsində heç bir real həll modeli, təklif reallaşmayıb.

Bu və digər səbəbdən Riqa sammitində ümumən postsovet məkanında konfliktli ərazilər, separatçı hərəkatlarla bağlı ortaq bir yanaşma-bəyanat qəbul edilməsi işin yalnız xeyrinə ola bilərdi. Belə bir sənəd həm də ona görə vacibdir ki, "Şərq Tərəfdaşlığı"na üzv 6 ölkənin dördündə Rusiyanın əli ilə etnik-ərazi münaqişələri qızışdırılıb və körüklənməkdədir.

Nüfuzlu beynəlxalq təşkilat olaraq AB-nin beynəlxalq hüquq normalarına sadiqliyini təkcə Ukrayna (Donbas) münaqişəsi zamanı deyil, ümumən postsovet məkanındakı konfliktlər fonunda bir daha Riqa sammitində bəyan eləməsi çox əhəmiyyətli olardı. Eyni zamanda Rusiya başda olmaqla, Avrasiya məkanındakı bütün işğalçılara ciddi mesaj olardı.

Söz düşmüşkən, AB-nin digər bir rəsmisi bugünlərdə bəyan eləmişdi ki, "Şərq Tərəfdaşlığı" proqramının bir üzv ölkəsinin digərinin ərazisini işğal eləməsi yolverilməzdir. Söhbət əlbəttə ki, Ermənistandan gedir. Nəzərə alsaq ki, Riqa sammitində Minsk Qrupunun üçüncü həmsədr dövləti olan Fransanın prezidenti Fransua Olland, Almaniya kansleri Angela Merkel, Avropanın digər liderləri də iştirak edəcək, o zaman belə bir sənədin əhəmiyyəti daha böyük sanbal daşıya bilər və növbəti Əliyev-Sərkisyan görüşünün effektindən də böyük olar.

Hər necə olmasa, nüfuzlu qurumlar "tüstülənən" Qarabağ münaqişəsinin təzədən alovlanmaması üçün vaxtında və gərəkən addımlar atmaq zorundadır. O sırada AB məxsusən və daha ciddi rol oynaya bilər, çünki onun ATƏT-dən fərqli olaraq ölkələrə konkret təsir-təzyiq rıçaqları var. Nə qədər ki, bu vasitəçilik və mexanizmlər Ermənistana münasibətdə işə düşməyib, Dağlıq Qarabağ məsələsində Minsk Qrupundan irəliləyiş, İrəvandan isə konstruktivlik gözləmək sadəlövhlük olardı...

*****

"Minsk Qrupunun vasitəçiliyi AB tərəfindən dəstəklənir, amma AB-nin Minsk Qrupuna dəstəyi kifayət qədər politoloji tədqiqata əsaslanmır. Minsk Qrupunun Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində ideya və resurs baxımdan tükəndiyini çoxdan bəyan edilib. Qurumun davranışı da bunu sübut edir. Vasitəçilər bu vaxtadək heç bir yeni ideya irəli sürməyiblər. Digər qurumlardan irəli sürülən ideyaları isə boğmaqla məşğuldurlar". **Bunu Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, Mübariz Əhmədoğlu deyib ("Trend").**

**Politoloq hesab edir ki, MQ-yə daxil olan ayrı-ayrı dövlətlərin qrupun qalan üzvlərinin də işini canlandırmaqla bağlı ideyaları həmsədrlər tərəfindən dərhal neytrallaşdırılıb:** "Həmsədrlərin irəli sürdüyü təklifləri tərəflərdən biri qəbul etmir və o zaman dərhal həmsədrlər bu təklifi daha aşağı statuslu, daha az təsirli təkliflə əvəzləyirlər".



**Onun sözlərinə görə, bəzi avropalı deputatlar və siyasətçilər də Qarabağ münaqişəsinin tənzimləməsinə qeyri-məntiqi yanaşma sərgiləyirlər:** "Məsələn, onlar Avropada sərbəst yerdəyişmə hüququnun prioritetliyini əsas götürüb Dağlıq Qarabağa Azərbaycanın razılığı olmadan səfərlər edirlər. Azərbaycan BMT, ATƏT, AŞPA, AB-nin "Şərq Tərəfdaşlığı" Proqramının üzvüdür. Avropada sərbəst yerdəyişmə azadlığı prioritetdirsə, ortaya sual çıxır: bəs onda niyə Dağlıq Qarabağda işğaldan öncə yaşamış azərbaycanlılar indi Dağlıq Qarabağ ərazisinə gedə bilmirlər? Ağdam, Füzuli və ya Cəbrayılın bir kəndinin sakini o biri kəndə ayaq basa bilmir?"

**Əhmədoğlu hesab edir ki, Ermənistanın münaqişənin yalnız dinc yolla tənzimlənməsinin tərəfdarı olması da tənzimlənməni yubatmaq üçün istifadə etdiyi rıçaqlardan biridir:** "Ermənistan münaqişənin yalnız Minsk Qrupu müstəvisində tənzimlənməsinin tərəfdarıdır. Minsk Qrupu da konsensus mexanizmi ilə işləyir. AŞ PA, AB və BMT-də isə qərarlar ya majoritar, ya da qarışıq səsvermə mexanizmi üzrə qəbul edilir. Vəziyyət o həddədir ki, Ermənistan hətta münaqişənin tənzimlənməsi üçün AŞ PA-da Alt Komitə yaradılmasının, orada müzakirəsinin əleyhinədir. Vasitəçilər AŞ PA-nın tənzimləmədəki rolunun ziyan və ya faydalı olmasına heç bir münasibət bildirməyib. AŞ PA yalnız ideyalar, təkliflər ortalığa qoya bilər. Amma Avropa Şurası nəhayət ki, vəziyyətdən çıxış yolunu tapa bildi. Bütövlükdə MDB məkanındakı münaqişələri müzakirə etmək üçün Alt Komitə yaratdı. AB istəsə o da bu variantdan yararlana bilər. Vacib olan AB-nin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə həqiqətən məşğul olmaq niyyətidir. Bu varsa, AB Minsk Qrupunun tənzimləmədəki rolunu tədqiq edib müvafiq nəticələr çıxara bilər. Ermənistanın davranışı xüsusi tədqiq edilməlidir. Minsk Qrupu və Ermənistanın birgə davranışı regionu müharibəyə sürükləyir".

"AB-nin Riqa sammiti münaqişənin tənzimlənməsində ideya qıtlığını və pərakəndəliyini aradan qaldırmaq, tənzimləməyə yeni stimul vermək, MQ-nin fəaliyyətini gücləndirmək məsələlərinə mühüm töhfə verə bilər" - əlavə edib o.

*****

**Onu da nəzərə almaq lazımdır ki, Avropa Birliyi, bütövlükdə Qərb postsovet məkanındakı konfliktlərin köklü həllinə əsas maneənin Rusiya olduğunu bilir. Deməli, Kremli bu münaqişələrin həll müstəvisindən bacardıqca uzaqlaşdırmaq lazımdır. Avropa Birliyi belə bir müstəvi rolu oynaya bilər. Mexanizmini tapmaq isə artıq rəsmi Brüsselin işidir. Riqa sammiti bu yöndə uğurlu başlanğıc ola bilər.**

# Deputat ön cəbhədə hərbçilərlə görüşdü

## Qənirə Paşayeva: "Ən böyük arzumuz bayrağımızın Dağlıq Qarabağda dalğalanmasıdır..."






**Milli Məclisin üzvü Qənirə Paşayeva Tovuzun Ermənistanla ön cəbhə nöqtələrindən biri olan Əlibəyli kəndində "N" saylı hərbi hissədə hərbçilərlə görüşüb. Onların qarşısında çıxış edən deputat deyib ki, hər bir azərbaycanlının ən böyük arzusu Ermənistanın işğalı altında olan torpaqlarımızın azad olunması və bayrağımızın Dağlıq Qarabağımızda da dalğalanmasıdır.**

"Bunun üçün biz hər birimiz üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməliyik. Mən inanıram ki, o gün uzaqda deyil və biz Ali Baş Komandan, cənab prezident İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı işğaldan azad edəcəyik və bayrağımız o gözəl torpaqlarımızda dalğalanacaq" - deyib o.

Tədbirdə Qarabağ müharibəsi veteranları, Tovuz Rayon İcra Hakimiyyətinin və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib. Sonra hərbi xidmətində fərqlənən əsgər və zabitlərə Qənirə Paşayevanın rəhbərlik etdiyi Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İB adından hədiyyələr təqdim edilib. Sonda hərbi hissənin rəhbərliyi çıxış edib, qonaqlara təşəkkür edərək, belə görüşlərin əsgərlər üçün mənəvi dəstək rolu oynadığını, onlarda ruh yüksəkliyi yaratdığını, əsgər və zabitlərin Ali Baş Komandanın əmr və tapşırıqlarına sözsüz hazır olduqlarını ifadə edib, düşmən üzərində qələbənin uzaqda olmadığını söyləyib.

Daha sonra tədbir bədii hissə və konsert proqramı ilə davam edib.

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015

# Ekspertlər həbslərin niyə Avropa Oyunları ərəfəsi aparılmasından danışdılar



**Son günlər iş adamlarının istintaqa cəlb edilməsi və həbsi ölkə gündəminin əsas müzakirə mövzusuna çevrilib. Maraq doğuran məqamlardan biri də bu prosesin niyə məhz Avropa Oyunları ərəfəsində başladılmasıdır.**

"Yeni Müsavat"ın mövzu ilə bağlı suallarını cavablandıran **politoloq Ərəstun Oruclu** bildirdi ki, prosesin Avropa Oyunları ərəfəsində ortaya çıxması onu göstərir ki, iqtisadi və siyasi sferada təcili tədbirlər görülməlidir: "Əsas səbəbi izah etmək bir qədər çətindir. Çünki rəsmi məlumatda səbəb o göstərilir ki, bu şəxslər dövlətin həmtəsisçisi olduğu bankın böyük həcmdə kreditini faktiki olaraq mənimsəyiblər və qaytara bilmirlər. Beynəlxalq Bank Azərbaycan bank sektorunun brendi kimi təqdim olunub. Beynəlxalq Bank Azərbaycan bankları arasında xarici ölkələrdə filialları olan, beynəlxalq tərəfdaşları olan əsas bank idi. Bu bankın hazırkı vəziyyətə düşməsi Azərbaycanın həm iqtisadi, həm siyasi mühitinə ağır zərbədir. Bu zərbə o dərəcədə ciddi idi ki, bank rəhbərini belə işdən azad etməli oldular. Görünür, bank rəhbərinin işdən çıxarılması problemlərin aradan qaldırılmasına təsir göstərmədi və bundan sonra qərara alındı ki, mənimsənilən vəsaitlərin geri qaytarılması üçün həbslər həyata keçirilsin. Bunun niyə məhz Avropa Oyunları ərəfəsində ortaya çıxması ilə bağlı isə onu demək olar ki, artıq ölkənin iqtisadi vəziyyəti, maliyyə durumu elə bir həddə çatıb ki, gözləməyə vaxt yoxdur. Mən bu variantı istisna etmirəm".



**Ərəstun Oruclu:** "İqtisadi vəziyyət o həddə çatıb ki, Avropa Oyunlarını gözləməyə vaxt yoxdur"



**Zahid Oruc:** "Biz bu həbslərin Azərbaycanın imicinə müsbət və ya mənfi təsir edəcəyi haqda danışmamalıyıq"

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü, millət vəkili Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, istənilən ölkənin həyatında mühüm beynəlxalq tədbirlər və hadisələr baş verə bilər və bu, cinayətkarlıqla mübarizəyə əngəl olmamalıdır:** "Məhz bundan yola çıxaraq o arqumentlə çıxış etsək ki, beynəlxalq tədbirlər hansısa hüquqi və ya fiziki şəxsləri məsuliyyətdən azad edir, onda qanunvericilik aktları işləməzdi, zamana və məkana görə dəyişərdi və heç bir gücü qalmazdı. Biz bu həbslərin Azərbaycanın imicinə müsbət və ya mənfi təsir edəcəyi haqda danışmamalıyıq. Belə yanaşmalar yanlış ola bilər. Biz xarici reaksiyaların bizim üçün nə dərəcədə önəm daşıdığını deyil, konkret situasiyada külli miqdarda vəsaitlərin taleyinin, eyni zamanda da digər qanun pozuntularının aşkarlanmasına və onların qiymətləndirilməsinə gedirik".

**Z. Orucun sözlərinə görə, əgər bunun üçün zaman verilmiş olsa və bütün bu məsələlər iyulun 1-dən başlamış olsaydı, o zaman da iddialar belə olacaqdı ki, Azərbaycan əldə etdiyi mühüm beynəlxalq nüfuzu indi daxildə müxtəlif şəxslərə qarşı istifadə edir:** "Hətta başqa iddialar da var ki, Azərbaycan beynəlxalq idman tədbirinə ev sahibliyi etməklə xarici dayaqlarını gücləndirəcək və sonra bunu Ermənistana qarşı müharibə başlamaq üçün istifadə edəcək. İndi heç olmasa məsələ daxildə hər hansı qanun pozuntusunun mühakiməsindən gedir. İkincisi, buna reaksiyalar təbii ki, müəyyən bir səviyyədə olacaq. Düzdür, diplomatik korpusun vəzifəsi o deyil ki, Azərbaycanda iş adamları və ya oliqarxlar adlandırılan şəxslərlə bağlı bəyanatlar versinlər. Təbii ki, onlar bu hadisələri izləyirlər. Əvvəllər hökuməti onda ittiham edirdilər ki, yuxarı vəzifədə olan şəxslər tərəfindən iş adamlarının müdafiə olunması iqtisadi sistemdə qeyri-dayanıqlıq yaradır, bərabər rəqabət imkanlarını pozur, onlar başqalarından üstün imkanlar əldə edirlər. İndi əks proses başlayan kimi dərhal böyük biznesə təhlükədən, külli miqdarda vəsaitlərin ölkəni tərk edə biləcəyindən, xarici kompaniyaların da bundan ehtiyatlanaraq ölkədə iş qurmaq qərarına bir daha baxacaqlarını deyirlər".

**Deputatın fikrincə, əgər kiçik bir borca görə sadə vətəndaşlar cəzalandırılırsa, milyonlarla manat vəsaiti mənimsəyən iş adamları da istisna təşkil etməməlidir:** "Beynəlxalq Bankın, dolayısı ilə dövlətin vəsaitlərini xüsusi təminatı olmayan, qeyri-müəyyən, əsaslandırılmamış layihələrə yönəltmək cəzasızlıq doğurmalıdır, ancaq cəmi 50 min manat borcu olan sadə vətəndaş məhkəməyə cəlb olunmalı, evi əlindən alınmalıdır. Ancaq kimlərinsə aldığı milyonlarla manat krediti geri qaytarmaq tələbi ölkədəki biznes mühitini korlaya bilər və buna göz yumulmalıdır. Burada mövqe o deyil, biznes mühitinə zərbə vurulsun. Məsələ çox sadədir: alınmış vəsaitlər geri qaytarılmalıdır. Deməli, dövlətin vəsaitlərini çox aşağı faizlə alırsan, bununla hər hansı bir iş ortaya qoymursan, sonradan həmin vəsaitlə manat-dollar hadisəsində möhtəkirlik edib kütləvi şəkildə dollar əldə edirsən. Yəni dövlətin öz pulu ilə başqa bir pulunu alırsan və bunu şəxsiləşdirirsən. Hesab edirəm ki, Azərbaycan beynəlxalq tədbirlərə baxmadan ölkənin həyatında baş verənlərə adekvat münasibətini ortaya qoymalıdır. Hüquqi cəmiyyət odur ki, orada hər kəsin bərabər şəraiti olsun. Azərbaycan bu məsələlərin əleyhimizə çevriləcəyini görərək kimlərinsə dövlətin milyonlarla manat vəsaitini mənimsəməsinə və dövlət əleyhinə istifadə etməsinə göz yummalı deyil".

❑ Nərgiz LİFTİYEVA

# Tanınmış vəkil məhkumun öldürülməsi işi üzrə dindirildi



## Qurban Məmmədov müstəntiqə qatilləri tapmağın yolunu göstərib

**"Mayın 14-də 2014-cü ilin dekabrında 14 saylı cəzaçəkmə müəssisəsində vəhşicəsinə döyülmə nəticəsində dünyasını dəyişən Elşad Babayevin işi üzrə Bakı Şəhər Prokurorluğunda şahid kimi dindirildim".**



Bu sözləri facebook səhifəsində tanınmış vəkil **Qurban Məmmədov** yazıb. Qurban Məmmədov müstəntiqin "Elşad Babayevin döyülməsini, işgəncəyə məruz qalmasını şəxsən görmüsünüzmü" sualına belə cavab verdiyini qeyd edib: "Xeyr. Görməmişəm və görməyim mümkün də deyildi. Bir adamın döyüldüyü, işgəncəyə məruz qaldığı kabinetdə, kamerada, "doprixod"da bir döyülən, bir də onu vəhşicəsinə döyənlər olur. Siz həqiqətən bu cinayətin üstünü açmaq istəyirsinizsə, hadisə günü nəzarət kameralarından çıxarışları əldə edin, Elşadın başına gətirilənlər barədə, danışdığı dustaqların təhlükəsizliyini təmin edin ki, onlar düzgün ifadə versinlər. Çünki qorxurlar, heç biri Elşadın taleyini yaşamaq istəmir. Döyülmə yerindəki nəzarət kameralarından çıxarışlara baxsanız, mərhumun necə döyülməsini və döyüldükdən sonra da sürüyə-sürüyə "karser"ə aparıldığını görəcəksiniz."

**Qurban Məmmədov daha sonra cəmiyyətə çağırış edib:** "Elşad Babayev siyasətçi deyil, müxalifətçi də deyil. Sizlər kimi sıravi vətəndaşdır. Demək ki, bu ölkədə hər an, hər bir vətəndaşın qanı bata, batırıla bilər.

Bu taleni yaşamaq, övladlarınıza da yaşatmaq istəmirsinizsə, başqalarına qarşı törədilmiş haqsızlıqlara qarşı etiraz səsinizi vaxtında ucaldın ki, yeri gələndə sizi də müdafiə etməyə adamlar tapılsın. Hələ ki gec deyil..."

Xatırladaq ki, dekabrın 22-də 31 yaşlı məhkum Elşad Babayev həbsxananın 5 nəzarətçisi - Firdovsi, Faiq, Rahib, İsmayıl və Vüqar tərəfindən işgəncə ilə öldürülüb. Ölümündən sonra onun meyiti Qaradağ Rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb. Bacısı Simuzər Babayeva orada qardaşının fotolarını çəkib və ictimailəşdirib. İş üzrə araşdırma aparmalı olan istintaq orqanına da həmin fotoları təqdim edib. Lakin istintaq orqanı gözlənilənlərin əksinə olaraq Elşad Babayevin işində çox susqun, həvəssiz görünüb. İş üzrə Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 309.1-ci - vəzifə səlahiyyətlərini aşma - maddəsi ilə cinayət işi başlanıb. Sonradan iş materialları Bakı Şəhər Prokurorluğuna ötürülüb. Elşad Babayevin işgəncələrlə öldürülməsindən 5 aya yaxın vaxt ötsə də, bu günə qədər məhkumu döyüb öldürənlər cəzasız qalıb.

**Ədliyyə Nazirliyinin saytında yer alan Cinayət Məcəlləsində bu maddə belə təqdim olunur:**

309.1. Vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda min manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə , əmlakı müsadirə olunmaqla üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015

# Xələc türməsinə qara maskalılar yeridildi

## 10-dan çox məhkumu "Tubzon"a köçürdülər

**Mayın 13-də Salyanın Xələc qəsəbəsində yerləşən 5 saylı cəzaçəkmə müəssisəsinə qoşun yeridilib, 10-dan çox məhkumu qara maskalılar döyə-döyə oradan çıxarıblar. Sonradan bəlli olub ki, məhkumları Bakıya, Binə qəsəbəsindəki Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə ("Tubzon") aparıblar.**



Məlumata görə, cəzaçəkmə müəssisəsində rəhbərlik dəyişdirilib. Yeni rəisin tətbiq etdiyi sərt qaydalar məhkumlar arasında ciddi narazılığa səbəb olub. Nəticədə müəssisə əməkdaşları ilə məhkumlar arasında mübahisə yaranıb, ciddi narazılıq olub. Məhkumlar elementar haqlarının tapdanmasına son qoyulmasını tələb etsələr də, qoşun yeridilməklə onların narazılığı zorakılıqla dəf edilib. Bundan sonra 10-dan çox məhkum "Tubzon"a köçürülüb. İslamazeri.az saytı yazır ki, müəssisədən qara maskalı şəxslər tərəfindən naməlum istiqamətə aparılanlar sırasında hicab məhbusları Surac Ağayev və Elimxan Hüseynov da var. **"Hadisə baş verməmişdən 3 gün öncə ailələri ilə əlaqə saxlayan hicab məhbusları ağır təzyiqlərə məruz qaldıqlarını bildiriblər. Onların həbsxanada mətbəxə girişinə qadağa qoyulub və həmin müddət ərzində onlara yemək verilməyib. Bundan əla-və, onlar müxtəlif vasitələrlə həbsxanada təzyiqlərlə üzləşiblər"** deyə, sayt məhkumların yaxınlarına istinadən məlumat yayıb.

Yada salaq ki, ötən ilin dekabrında 14 saylı cəzaçəkmə müəssisəsində məhkum Elşad Babayevin öldürülməsi məhkumların kütləvi etirazına səbəb olmuşdu. Bu olaydan 4 gün sonra müəssisəyə xüsusi təyinatlılar yeridilmiş, məhkumlar kütləvi şəkildə döyülmüşdülər. Onlardan 11 nəfəri "Tubzon"a köçürülmüşdü. O vaxt "Yeni Müsavat"a açıqlama verən məhkum İsa Yaqubovun anası Aynur Yaqubova "Tubzon"u Gestapoya bənzətmişdi.

Sitat: **"Elşad Babayevin öldürülməsindən sonra onları "Tubzon"a köçürüblər. Ora işgəncə yeridir. Oranın rəisi Nizami Quliyev uşaqlara işgəncə verdirib. Onların əllərinə 4 qandal vurdurmaqla, 10 gün əli bağlı vəziyyətdə karsda saxlayıblar. 10 gün ərzində tualetə getməklərinə belə şərait yaradılmayıb. Deyiblər ki, saxlandığınız yer elə tualetinizdir. Təsəvvür edin ki, o vəziyyətdə 10 gün uşaqlar qalıb. Üzləri havasız şəraitdə saxlandıqlarına görə şişkindir, rəngləri ağarıb. O qədər vurublar ki, İsanın ağzında dişləri qalmayıb. Belə Allahsızlıq olar? Belə müsəlmançılıq olar? Xocalıda, Şuşada azərbaycanlılara qarşı vəhşilik edən erməni ilə bu adamların arasında nə fərq var? Uşaqlarımızı "Tubzon"a döyməyə aparıblar, onları orada möhkəm döyüblər. Ora işgəncə zonudur. Məhkumun əlinə 4 qandal vurub döydürən Nizami Quliyevdir. Ora gestapodur, bu da gestapo şefidir. Allah onu etdiklərinə görə heç bağışlamasın".**

Məlum olmuşdu ki, vərəm olmayan məhkumları "Tubzon"a köçürüb onları əl-qolları bağlı vəziyyətdə döyüb işgəncələrə məruz qoyur, ağır şəraitdə saxlayırlar. Məhkumların yaxınlarının Azərbaycanda fəaliyyətdə olan Qırmızı Xaç Cəmiyyətinə, Ədliyyə Nazirliyi yanında İctimai Komitəyə müraciətləri də cavabsız qalmışdı.

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Penitensiar Xidmətin mövqeyini dərc etməyə hazırıq.*



# Bakıda Türkiyə vətəndaşı özünü asdı

**Bakıda intihar hadisəsi baş verib. Lent.az-ın məlumatına görə, Nəsimi rayonu, Nizami küçəsi 135, mənzil 200 ünvanında ("Torqovıy" adlanan məhəllə) kirayəşin yaşayan Türkiyə vətəndaşı, 1965-ci il təvəllüdlü Dursun Nurbay özünü asaraq intihar edib. Onun şarfdan asılı vəziyyətdə qalmış meyiti qapının qarşısında aşkarlanıb.**

Bildirilir ki, D.Nurbay 2009-cu ildən Bakı şəhərində fərdi əməklə məşğul olurmuş.

# Keçmiş nazir qohumunun qətlindən danışdı

**"Xalam oğlu Füzuli İsgəndərovun qətlindən sonra biz ciddi sarsıntılar keçirdik. Ailə içərisində belə hadisənin olması çox pisdir. Ancaq onu da deyim ki, cinayətkar hər yerdə ola bilər. Cinayətkarın vətəni olmur".**


Əvəz Ələkbərov

Bunu modern.az saytına eksklüziv açıqlamasında sabiq maliyyə naziri Əvəz Ələkbərov xalası oğlu Füzuli İsgəndərovun amansızlıqla qətlə yetirilməsindən danışarkən deyib. O bildirib ki, cinayətkar öz cəzasını almalıdır. Sabiq nazir xalası oğlunun şəxsi həyatı ilə bağlı bəzi məlumatlar da verib: **"O, uşaq yaşlarında anasını itirmişdi və yetim böyümüşdü. Zəhmətkeş bir adam idi. O, ailəsini, uşaqlarını çox sevirdi, ailəcanlı idi".**

Əvəz Ələkbərov qeyd edib ki, xalası oğlu öldürüləndə Azərbaycanda olmayıb. **"O zaman mən Madriddə idim. Bir müddət mənə onun ölüm xəbərini demədilər. Xalam oğlu basdırılandan sonra xəbər tutdum ki, qətlə yetirilib. Çox narahatlıq keçirdik ki, onu kim və hansı səbəblərə görə öldürüb".** Keçmiş nazir xatırladıb ki, hazırda bu qətllə bağlı istintaq gedir və müəyyən insanlar həbs edilib.

Əvəz Ələkbərovun xalası oğlu Füzuli İsgəndərov 2014-cü il sentyabrın 1-də Bakıda xüsusi amansızlıqla qətlə yetirilib. Bakı Şəhər Prokurorluğu və Nizami Rayon Polis İdarəsi əməkdaşlarının apardığı araşdırmalardan sonra belə nəticəyə gəlinib ki, qətli mərhumun həyat yoldaşı Xalidə İsgəndərova və qızı Əmanə İsgəndərova törədib.

Füzuli İsgəndərov uzun müddət Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində çalışıb.

# İslam terror dini deyil, amma...



Kənan RÖVŞƏNOĞLU

**Antalyada keçirilən NATO sammitində çıxış edən baş nazir Əhməd Davudoğlu İslam dininin terrorla əlaqələndirilməsini tənqid edib. "Terrorun dini yoxdur" deyən baş nazir İslama bu cür qara ləkə yaxanlara qarşı əməkdaşlığa çağırıb.**

Davudoğlu xüsusən də son illərdə Yaxın Şərqdə genişlənən məzhəb savaşlarının NATO-ya üzv ölkələrə, onların iqtisadiyyatına və stabilliyə təsir etdiyini bildirərək daha mütərəqqi düşüncə tərzi ilə bu problemlərin həll oluna biləcəyini deyib.

Belə baxanda yeni bir söz olmasa da, mövzu hələ də aktual olaraq qalır. Bu xəbərin yanında bir başqa başlıq diqqəti çəkdi: Hollandiyada müsəlman aparıcı efirdə "Allahu- Əkbər" deməsi ölkədə ciddi təpkilərə səbəb olub. Belə ki, aparıcı veriliş zamanı karuseldə həyəcanlanaraq "La ilahə illəllah! Allahu-Əkbər!" deyib və bundan sonra onu məhkəmə ilə hədələyiblər.

Əlbəttə, bu iki xəbərdə ilk baxışdan ciddi əlaqə görünməyə bilər. Amma məsələ ondadır ki, hollandları qorxudan, narahat edən, qıcıqlandıran təkbir *(Allahu-Əkbər - "Allah böyükdür")* kəlməsi İslam dininin əsas şüarlarından biridir və müsəlmanların gündəlik dua və ibadətlərində işlənir. Ancaq göründüyü kimi, artıq bu kəlmə insanları qorxudur. Bunun isə sadə səbəbi var: son illərdə müsəlman terrorçular terror törədəndə məhz bu sözdən istifadə edirlər. Partlayışlar, Yaxın Şərqdə qanlı cinayətlər, kütləvi qətllərdə əsas şüar "Allahu-Əkbər" olur.

Təbii ki, bu, İslam dininin əmri deyil. Davudoğlunun məntiqi burda çox güclüdür və həqiqəti əks etdirir. Amma ortada fakt var. O da bundan ibarətdir ki, terror həyata keçirən müsəlmanlar islamdan istifadə edir, dinə istinad edirlər. Terrorun dini olmasa da, terrorçunun dini var, hətta dini olmasa belə, indi terrorçular cinayət edəndə dindən - İslamdan qalxan kimi istifadə edirlər. Bu səbəbdən də müsəlman intellektualların, ziyalıların, siyasət adamlarının "terrorun dini yoxdur" deməklə İslamı müdafiə etmək cəhdi bəsit görünür.

Terrorun İslam hökmləri ilə bir bağlılığı yoxdur. Bütün səmavi dinlər, o cümlədən İslam dini insanları hüzura, ilahi kamilliyə dəvət edir. Dinlərin günahsız insan öldürməsi, mühakiməsiz qətllərə haqq qazandırması mümkün deyil. Amma ortada acı faktlar var. Bəs səbəb nədir o zaman?

Əslində hər şey yenidən siyasətə qayıdır. Din adamları, siyasətçilər, dövlət rəhbərləri hər nə qədər zaman-zaman İslamın terrorla əlaqələndirilməsinə qarşı çıxış etsələr də, bu vəziyyətin yaranmasında müsəlman dövlətlərinin, nüfuzlu alimlərin böyük məsuliyyəti var. "Terrorun İslama aidiyyəti yoxdur" deyən din alimləri, müsəlman siyasətçiləri zaman-zaman islamçı silahlı müqaviməti, dini şüarlarla savaşı, cihadı dəstəkləyib, təşviq edib, hətta yaradılmasında iştirak ediblər.

Əfqanıstanda sovet istilasına qarşı vətən müharibəsinə dini çalar qatıb cihad kimi təbliğ edən və bunun vasitəsilə ərəb ölkələrindən könüllüləri sovetlərə qarşı savaşa cəlb edən dövlətlər 10 il sonra başqa mənzərə ilə qarşılaşdılar. Sovetlər Əfqanıstandan çıxdı, amma cihad təşkilatları qaldı. Həmin cihad qrupları sonradan Əfqanıstanda, Pakistanda, Keniyada, ardınca isə ABŞ və Avropada "cihadlarını" davam etdirdi. Bu cür nümunələri indi bütün müsəlman ölkələri ilə bağlı çəkmək olar. Suriya, İraq, Fələstin, Liviya, Yəmən və daha neçə-neçə ölkələr. "Cihad" adı ilə ortaya çıxan qrupların hər birinin arxasında ən azı bir, əksər hallarda isə bir neçə dövlət olur. Hər kəs də belə gəlib özünə bulaşanda şikayətlənməyə başlayır.

İslamda terror anlayışı yoxdur, amma müsəlmanları İslam adı ilə aldadıb din adından terrora, qanlı cinayətlərə sövq edirlər. Bunun məsuliyyəti isə ilk növbədə müsəlman ölkələrinin dini və siyasi rəhbərlərinin üzərindədir. Yoxsa ki, din siyasi ehtiraslara alət olduğu müddətdə biz hələ şikayətlənməkdə davam edəcəyik.

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015




# Məbəs - bəşəriyyətin yeni erasının başlanğıcı

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək Rəcəb ayının son günlərini yaşayırıq. Bu günlərin öz-özlüyündə mübarək olması ilə yanaşı, əziz İslam Peyğəmbərinin (s) Allah-Təala tərəfindən peyğəmbərliyə vəzifələndirildiyi günün - Məbəs gününün bu dönəmə təsadüf etməsi ona xüsusi təravət və nəciblik verir. Bəşəriyyət üçün sonuncu İlahi Elçi olaraq göndərilməsi ilə Rəsuli-Əkrəm (s) insanların cahiliyyət və nadanlıq bataqlığından xilas olması üçün bir nicatverici yol təqdim etdi.**

## Dəyərlərdə baş verən inqilab

Peyğəmbərimizin (s) gəlişindən sonra Ərəbistan yarımadasında köklü dəyişikliklər baş verdi. Bu dəyişikliklərin əsas vektoru insanların dəyişməsi ilə bağlıdır. İnsanların daxili dəyişdi, rəftarı dəyişdi, əməlləri dəyişdi. Dəyərlərdə bir inqilab baş verdi. Bir toplum ki, mənfiliyi, çatışmazlığı tam surətdə özündə ehtiva edirdi, bir neçə onilliyə diametral əks vəziyyətə gəldi. Dəyərlər dəyişdi. İnsanların bir-birinə münasibətlərində, rəftarlarında misilsiz əvəzlənmələr yer aldı. İnsanların əvvəllər öyündüyü mətləblər indi utanc obyektinə çevrildi, can atdığı hədəflər tam fərqli oldu.

Cahiliyyətin elementləri olan insanlar düşünən, çalışan bir fərdlərə çevrildi. Və bu düşünən insanların elmə marağı, can atması o qədər güclü idi ki, bu passionar enerjinin sayəsində İslam mədəniyyəti bütün dünyaya yayılmağa başladı.

Əfsus ki, bir müddət keçdikdən sonra, fitnələrin məhsulu olaraq bir hal meydana gələcək ki, müəyyən qisim insanlar üçün bu yeniləşmənin, bu dərin transformasiyanın yalnız zahiri cəhətləri qalacaqdı. Yaranan mahiyyət dəyişiklikləri, bərqərar olan yeni bünövrə həqiqi yaşatma, daşıyıcılıq istəyən mətləblər olduğundan, yalnız az bir qrup insanın öhdəsində qalacaqdı. Bunlar Peyğəmbərimizin (s) buyuruşlarına həqiqətdə əməl edən insanların öhdəsində qalacaqdı. Böyük çoxluq isə zahiriyyətlə kifayətlənməyə üstünlük verəcəkdi.

## Kəbə evi və möminin məqamı

Heyhat! Bu zahiriliyə meyl və fundamental dəyərlərə sayğısızlıq təkcə o keçmiş günlərə aid deyil. Günümüzün də problemidir bu. Müsəlmanlar çoxdur, amma Həzrət Rəsulallahın (s) mübarək irsinin daşıyıcısı, Peyğəmbərimizin (s) gətirdiyi İlahi təlimin həqiqi ardıcılı azdır. Rəsulullahın (s) mü-



barək çatdırışlarına "ləbbeyk!" deyənlər, ümumi saya nisbətən azdır. Dinimiz isə həqiqi iman istəyir, bəndəlik istəyir, insanın ilahi dəyər daşıyıcısı olmasını istəyir. Bu əlaqədə hər bir müsəlman, Məbəs fəlsəfəsində əhatə olunmuş o yüksək və nurani standartlara özünün uyğunluğunu gərək dönə-dönə yoxlasın.

İnanclı insan gərək standartların müəyyən edilməsində son dərəcə ayıq və diqqətli olsun. Müxtəlif təsirlərə məruz qalan mühitin təqdim etdiyi qəlp dəyərlərlə yox, həqiqi kamillik standartlarını özü üçün həyat mayakı seçməlidir insan.

Təbərrük üçün dinimizin iman əhli barədə mübarək çatdırışlarına nəzər salaq. Əziz İslam Peyğəmbəri (s) Kəbə evinə nəzər salaraq buyurub: **"Mərhəba olsun Beytə (Kəbə evinə)! Nə böyük və əzəmətlidir! Və nə böyükdür Allah yanında hörməti! And olsun Allaha ki, möminin hörməti səndən (Kəbə evindən) daha əzəmətlidir. Çünki sənin üçün bir hörmət var, mömin üçünsə 3 hörmət: malı ehtiramlıdır, qanı ehtiramlıdır, şəni və mötəbərliyi ehtiramlıdır. Çünki heç bir kəsin haqqı yoxdur ki, möminə münasibətdə pis güman etsin".**

Hər bir kəs Kəbə evinin dinimizdə olan ehtiramından xəbərdardır. İndi diqqət edək o məqama ki, Allah Elçisi (s) möminin hörmətinin hətta Kəbə evindən də əzəmətli olduğunu göstərir. Daha sonra Peyğəmbərimiz (s) 3 əsas ehtiram obyektinin: həyat və sağlamlığın, mülkiyyətin, şəxsiyyət və heysiyyətin toxunulmazlığı barədə müddəanı diqqətə çatdırmaqla, əslində həm cəmiyyətdaxili əlaqələr, həm də hüquq və azadlıqların təmini baxımından mübarək dinimizin fundamental müddəalarını çatdırır.

## Yaranmışların ən sevimlisi

Müsəlman olmağa iddialı hər bir şəxs bu standartlara doğru ucalmalıdır. Özünə və digərinə münasibətdə istər həyat və sağlamlığın, istər mülkiyyətin, istər abrın və heysiyyətin ehtiramlılığı barədə - bu qorunan 3 cəhət barədə - sual verməlidir hər kəs. Bunların ehtiramlığı saxlanılırmı? Bunlara kifayət qədər diqqət yetirilirmi?

Təbii ki, bunlar hansısa mücərrəd mövzular deyil. Konkret, tətbiqi kateqoriyalardır. Birbaşa günümüzə aidiyyəti var. Bunlar - dinimizin qırmızı xətləridir. Yaşanmayanda böhran yaranır toplumda. Əgər toplumun hətta bir üzvünün ləyaqətinə xələl gəlirsə, əgər toplumda hər bir insanın ləyaqətini qoruyacaq işlək mexanizmlər yoxdursa, həmin toplumda böhranlar yaşanacaq. Burada faciələr də olacaq, ailələr də dağılacaq, intiharlar da olacaq. Odur ki, cəmiyyət öz hər bir üzvünün şəxsiyyət və ləyaqətinin ehtiramlılığı barədə düşünməlidir.

İslam Peyğəmbəri (s) buyurur: **"Səna və həmdi uca olan Allah Təala buyurur: "And olsun izzət və cəlalıma ki, bütün Öz yaratdıqlarım arasında mömindən daha sevimli bir yaranmışı yaratmamışam"".**

Mömin ünvanına aid bütün insanlar, başda əziz İslam Peyğəmbəri (s) və onun Əhli-beyti (ə) olmaqla, bu hədisin misdaqıdır, nümunəsidir. Hər kim ki, səmimi qəlbdən iman gətirib, haqqın yolundadır - o, Allah Təalanın yaranmışlar arasında ən sevdiyi məxluqdur. Və insanların sevilib-sevilməyən olması da bu meyar üzrədir. İnsan nə qədər çox iman gətirdisə, Allah dərgahında daha çox sevilləndir.

Həqiqi möminin məqamı dinimizin nəzərində çox yüksəkdir. Rəsuli-Əkrəmdən (s) nəql edirlər: **"Allah dərgahında mömin müqərrəb mələklərdən daha əziz və hörmətlidir".**

Digər yerdə Rəsulullah (s) bu nöqtəni bir daha vurğulayır: **"Allah dərgahında mömin müqərrəb mələk kimidir. Həqiqətdə, əslində Allah dərgahında (mömin) müqərrəb mələkdən də üstündür".**

İmanın digər meyarı - sevinc və kədərlə bağlıdır. Rəsuli-Əkrəm (s) buyurur: **"Bəndə Allaha görə qəzəblənib, Allaha görə sevinməyincə - imanın həqiqətinə çatmaz. Belə olan zaman isə o, imanın həqiqətinə layiq olub".**

Bu, mücərrəd mövzu deyil. Gün ərzində insanın ovqatını təlx edən və yaxud insanı sevindirən mövzulara diqqət etməsi gərəkdir. Ovqatın necəliyinə səbəb olan amillər insanın keyfiyyət göstəricisidir. Bəzən insanın təzə paltarına ləkə düşməsi onun əhvalını elə pozur ki, görənlər deyir, yəqin hansısa ciddi faciə baş verib bu adamla. Amma qəlbinə düşən ləkələr, mənəviyyatına düşən ləkələr onu bu cür narahat etmir. Və yaxud əksinə. İman müstəvisində, mənəviyyat müstəvisində baş verən müsbət hal onu elə sevindirmir, necə ki, sevimli komandanın qalibiyyəti.

## Həqiqi imanın mərtəbələri

Əgər mömin Allah dərgahında müqərrəb mələkdən də üstündürsə, Allah-Təalaya ən yaxın olan mələklərdən də hörmətlidirsə, bundan uca məqam təsəvvür etmək çətindir. Bu baxımdan hər bir inanclı insanın üzərinə, insanlararası münasibətlər baxımından xüsusi vəzifələr düşür - həssas, səmimi və diqqətli olmaq, yaxşılıqlara dəvət etmək, pisliklərdən çəkindirmək kimi vəzifələr.

Bəs möminin bu cür yüksək məqamı nə ilə izah olunur? Mömin - bir iradəvi halın məhsuludur. Avtomatik baş verən bir şey deyil. Seçimin nəticəsidir. İnsan daima seçim qarşısında durur. Həqiqi iman gətirən o kəsdir ki, həmişə Allah istəyəni seçir. Şüurlu halda, başqa cür etmək imkanı olduğu halda, məhz bu yolu seçəndir mömin. Böyük İslam Peyğəmbəri (s) buyurur: **"İman - iddia və arzu ilə deyil. O, qəlbdə xalis olan və əməlin təsdiqlədiyi şeydir".**

Məlum olur ki, iman yalnız nəyisə arzulamaq, yaxud nəyəsə iddia etməklə müəyyənləşmir. İman - arzu və iddia müstəvisində olan bir şey deyil. Arzular, istəklər, iddialar iman radiusuna aparıb çıxarmır. Bu radiusa aparıb çıxaran - xalislik və əməldir. İman qəlbdə qərarlaşmış və xalis təbiətə malik olan bir şeydir. İman - mütləq əməllə təsdiqlənməlidir. Mümkün deyil ki, qəlb imanla dolu olsun, amma əməldə başqa bir şey təzahür tapsın. İnsan imanlı olsun, amma ətrafdakıları acılamaqla, incitməklə məşğul olsun. Məhz xalis qəlb və əməl insanı o duruma gətirir ki, Kəbə evindən daha hörmətli və Allaha yaxın mələklərdən daha əziz olur.

## Haqqın yanında olmaq - sərf etməsə belə...

Əslində təhtəlşüurun üzə çıxması ilə səciyyələnən sevinc-kədər sistemi, insanın iman durumunun göstəricisidir. Nə ilə həmahəngdir insanın vəziyyəti? Nə ilə uyğunlaşdırır, uzlaşdırır o, öz ruhi-mənəvi sistemini? İmam Cəfər Sadiqdən (ə) nəql edirlər: **"Həqiqi imanın əlamətlərindən biri - sənin hətta öz ziyanına olsa belə, haqqı hətta öz xeyrinə olsa belə batildən üstün tutmağındır".**

Necə də dəqiq meyar gətirilir! Çox-çox elə bilənlər var ki, haqqın yanında olmur və batili dəstəkləyirlər. Düzdür, bəzən haqqı batildən ayırmaq elə də asan olmur, xüsusi təhlil lazım olur və s. Amma əksər hallarda hər şey həddən artıq aydındır. Bir də görürsən, ziyalılığa iddialı bir insandır, amma seçimə gəldikdə, batili seçir. Niyə? Çünki bir çox hallarda batilin seçimi zahirən daha sərfəli olur. Bəli, əlbəttə ki, zahirən. Ömər Sədə (lən) nə söz verməmişdilər İmam Hüseynə (ə) qarşı qoşun yığıb getməyinə görə. Vəzifə, şan-şöhrət, ləl-cavahirat, zəngin bir vilayətin valiliyini. Axırı nə oldu? Qismət olmadı ona heç bir valilik-filan. Ancaq əbədi lənət qaldı onun adının üstündə.

Tək yezid, şimr, müaviyə kimi bəşəri canilərə aid deyil bu aqibət. İrili-xırdalı "xeyirlər"ə xatir öz vicdanından keçən hər bir uğursuza aiddir bu. Zahiri faydanın ardınca getməyin, həqiqi faydanı bada verməyin aqibəti acı olur. Dinimiz isə deyir, sən haqqın ardınca get, batildən uzaq ol - hətta əgər sənin zahirən xeyrinə olmasa da. Axı nəticə etibarilə, əslində sənin xeyrinə olacaq. Əbədiyyətə bir əməl göndərəcəksən ki, başını uca edəcək. Həqiqi dəyərə malik olan bir əməl. Çətin məqamda dadına çatan bir əməl...

Həyatın bütün səhnələrinə aidiyyəti var bu mətləbin. Görürsən tələbədir, dərslərə hazırlaşmaq yerinə rüşvətlə, tapşırıqla qiymət yazdırır - yaman iş görür. Kimsə iş yerində görürsən müdriyyətə xoş gəlmək üçün vicdanı ilə "kompromisə" gedir. Sonra bu "kompromislər" artıq ictimai həyatda özünə yer alır, vicdandan əsər-əlamət belə qalmır insanda.

## Mömin - dağdan möhkəmdir

Möminin əlamətləri babında İmam Muhəmməd Baqirdən (ə) aşağıdakı maraqlı hədis nəql olunur: **"Mömin - dağdan da möhkəmdir. Dağdan bir şey azalar, amma möminin dinindən bir şey azalmaz".**

Dağ nə qədər möhkəm olsa da, əsən küləklər ondan bir hissələr qoparar. Az və ya çox, amma dağ da itki verir. Amma nə qədər çətinlik küləkləri, sınaq küləkləri əssə də, həqiqi mömindirsə, onun din-imanından bir şey əskilməz. Namazından itki verməz, orucundan itki verməz, Allaha görə dost-düşmənliyindən itki verməz, ləyaqətindən itki verməz mömin. Mömin deyilsə, dərhal bilinəcək. Bir balaca sınaq küləyi əsən kimi, dərhal özü hazır olacaq itki verməyə.

Amma mömindən bir şey azalmaz. İmam Cəfər Sadiqdən (ə) nəql edirlər: **"Mömin dəmir parçasından da möhkəmdir. Dəmir parçası oda qoyulanda dəyişir, amma mömin öldürülsə də, qəlbində dəyişiklik yaranmır".**

Heç bir sınaq qarşısında əriməz mömin. Mömini öldürə bilərlər, amma qəlbindən imanı çıxara bilməzlər. Deyən olar ki, bu, bir əlçatmaz məqamdır. Məgər bu məqama çatmaq mümkündürmü? İslam Peyğəmbərindən (s) nəql edirlər ki, buyurub: **"Qardaşlarımı nə zaman görəcəyəm?" Səhabələri soruşdular: "Məgər biz sizin qardaşınız deyilik?" Həzrət (s) buyurdu: "Siz - mənim səhabələrimsiniz. Mənim qardaşlarım o kəslərdir ki, məni görmədən mənə iman gətiriblər. Onları görmək şövqündəyəm".**

Kimdir bu insanlar? Hər bir kəs ki, hansı dövrdə yaşamasından asılı olmayaraq, həqiqi iman gətirəndir. İnsan Həzrət Peyğəmbərin (s) qardaşı olmaq şərəfinə nail ola bilər. Bu, hər kəsin özündən asılıdır. Hər kəs o vəziyyətə ucala bilər ki, Həzrət Peyğəmbər (s) onunla görüşməyin şövqündə olsun. Seçimi edən - insandır. Onun imkanı var ki, günün 24 saatını mənalı və bərəkətli keçirsin, edə də bilər iblisin (lən) vəsvəsinə tabe olub, həyatını büsbütün mənasız keçirsin. Allah-Təala cəmi insanları bəndəliyində israrlı olanlardan, mənalı və dolğun həyat yaşayanlardan qərar versin, inşallah!

**Allahım! Cəmi iman əhlini həqiqi iman gətirənlərdən qərar ver! İşğal olmuş torpaqların azadlığını, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühür etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 104 (6132) 15 may 2015

# Bakı bazarlarının alıcıları: “Kasıbınkı yaydır...”

## Havalar isinir, bazarlarda da qiymətlər nisbətən ucuzlaşır







**Bazarlarda bəzi məhsulların qiymətində endirim müşahidə edilir. Xüsusən də meyvə və tərəvəzlərin qiymətində cüzi də olsa, endirimlər var. Bunu baş çəkdiyimiz “Yaşıl bazar”da müşahidə etdik. Əvvəl bir kiloqramı 10-15 manata satılan alça indi 3-6 manat arası, 10-20 manata satılan çiyələyin bir kiloqramı 3-6 manat arası, 10 manata satılan şaftalı 6 manat, balaca qablaşdırmada satılan gilas 4 manata, 1 manat 30 qəpiyə satılan kartof 1 manata, təzə kartof isə 1 manat 20 qəpiyə, 1 manata satılan soğan 50-70 qəpik arası, kələm 80 qəpiyə, 8 manata satılan lobya 6 manata, 2 manat 50 qəpiyə satılan pomidor isə 2 manat 20 qəpiyə, xiyar 1 manat 50 qəpiyə, göyərtinin 7 dənəsi 1 manata satılırdı.**

Satıcılar qiymətlərin nisbətən ucuzlaşmasını artıq mövsümü meyvə-tərəvəzin çıxması ilə əlaqələndirirlər. Satıcı Seymur Əliyev baha qiymətə alıcı olmadığı üçün qiyməti ucuzlaşdırdığını dedi: “Əvvəllər çiyələyi satırdım 15 manata. Heç alan da yox idi. Onu da necə saxlayım, xarab olur atıram. Bu da mənim ziyanımadır. Ona görə də ucuz satıram. Nə edim ki, heç olmazsa, qoyduğum pulu çıxarım”.



**Digər satıcı İsmayıl Kərimov isə nisbətən ucuzlaşmanın məhsulların bolluğu ilə əlaqəli olduğunu dedi:** “Artıq təzə pomidor, alça yetişib. Bir azdan qiymətlər daha da ucuz olacaq. Əvvəl bu meyvələr xaricdən gətirilirdi. Ona görə baha idi. İndi isə yerli məhsullar yetişib. İndi alçanı 3 manata satıram. Amma bir azdan 1 manata, hətta 50 qəpiyə olacaq”.

**Alıcı Təranə Quliyeva isə qiymətlərin ailə büdcəsinə uyğun olmadığını dedi:** “Bizim ailə büdcəmiz istədiyimiz kimi bazarlıq etməyə yetmir. Həm də elə də bir ciddi ucuzlaşma yoxdur. Qiymətlərdə qəpik söhbəti var ki, bu da yetmir. Bazara gəlib kartof, soğan bir az da meyvə almışam, artıq 20 manatım gedib. Hələ ət, yağ, çayı demirəm... Normal bir bazarlıq üçün 50 manat lazım gəlir”.

Alıcı Fəridə Əhmədova isə əksini düşünür. O, qiymətlərin ucuzlaşmasına sevindiyini, digər ərzaq məhsullarında da bunu görmək istədiyini deyir: “Əvvəlkinə baxanda indi bazar xeyli ucuzlaşıb. Get-gedə ucuzlaşacaq. Boş yerə deməyiblər kasıbınkı yaydır. Amma istərdim ki, bazardakı cüzi ucuzlaşma marketlərə də şamil edilsin. Belə çox çətindir. 200 manat maaş alıram. Onunla bir ay necə yaşamaq olursa elə mən də o cür yaşayıram”.

Ət satıcıları isə qiymətlərin olduğu kimi qaldığını deyirdilər. Paytaxtda heyvanların kəsilməməsi ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin yaxın zamanlarda qüvvəyə minəcək qərarı isə qəssabları narahat edir. Kənd Təsərrüfatı Nazirliyinin yeni qərarına əsasən, yaxın gələcəkdə qəssabların heyvanları insanların gözü qarşısında kəsib satmasına icazə verilməyəcək. Qəssablar ət satmaq üçün Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin vahid kəsim məntəqələrinə müraciət etməli olacaq. Bu məntəqələrdən əti alıb piştaxtalarında satacaqlar. Sözügedən məntəqələr hazırda Bakının girişində tikilməkdədir. Qəssablar isə bu qərarın insanların təzə ətə olan inamını azaldacağını və satış səviyyəsinin aşağı düşəcəyini bildirdilər. Ancaq qəssablar arasında bu qərarın qüvvəyə minəcəyinə inanmayanlar da var...

❑ **Günel MANAFLI**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyadək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarən dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

# Son səhifə

N 104 (6132) 15 may 2015




## Sui-qəsdin məqsədi şoka saldı

İngiltərə taxtının vəliəhdi şahzadə Çarlz və şahzadə Uilyama qarşı sui-qəsd planlaşdıran Mark Calbornenin Londonda məhkəməsi başlayıb. Məlumatlara görə, Calborne polis tərəfindən ələ keçirilən dəftərində "tünd rəngli insanları öldürmək istəyirəm, şahzadə Çarlzın başına ucuna susdurucu taxılmış silahla atəş açacağam" deyə, yazıb. Mark Calbornenin şahzadə Harrini özünə bənzədirmiş və bu səbəbdən də onun hakimiyyətə gəlməsini istəyirmiş. Qızılı saçlı olduğu üçün davamlı olaraq insanlar tərəfindən aşağılandığını deyən Colborne terrorçuya çevrilib hamıdan intiqam almaq istəyində olduğunu deyib.



## Selfi ölüm gətirdi

Rumıniyada gənc qızın selfi sevgisi ölümünə səbəb olub. 18 yaşlı Anna Ursu selfi çəkdirmək üçün dayanan bir qatarın üzərinə çıxıb. Lakin gənc qızı elektrik cərəyanı vurub. Onun bədənində ağır yanıqlar meydana gəlib. Qız dərhal Buxarest xəstəxanasına çatdırılıb. Lakin həkimlərin bütün səylərinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb. Hadisə zamanı qızın yanında 17 yaşlı rəfiqəsi də olub. O, yüngül yaralandığı üçün müalicəsini davam etdirir.

# WhatsApp-da böyük dəyişiklik

Dünyanın ən böyük mesajlaşma şəbəkəsi son yeniliklərlə istifadəçilərini məmnun edəcək. Məşhur mesajlaşma tətbiqi olan WhatsApp-ın dizaynı dəyişib. 800 milyonu ötən istifadəçisi olan dünyanın ən böyük mesajlaşma şəbəkəsinin dizaynında daha çox loqoya uyğun olaraq yaşıl tonlardan istifadə olunub. WhatsApp-ın son yenilənməsi "Android 5.0" versiyası tərəfindən dəstəklənir. Son yenilik "Android" platforması nəzərə alınaraq hazırlanıb.




# Qızını şahzadə etdi

Qızına "səni bir gün şahzadə edəcəyəm" sözü verən amerikalı Jeremiah Heaton illərdir bunu necə gerçəkləşdirəcəyini düşünürdü. Kral olmağın yollarını axtaran Heaton Misir və Suriya arasında qalan "Bir Tavil" adlı bölgənin sahibsiz olduğunu təsbit edib. Bu bölgəyə gedən Heaton "Sudan Krallığı" adını verdiyi torpaqlara bayrağını sancıb. Krallığın çöl ortasında olduğunu göstərən kişi quraq bölgələrdə əkinçilik etmək üçün araşdırma aparacağını, ona görə də burada laboratoriya qurmaq istədiyini deyib. Üzvlük üçün Birləşmiş Millətlər Təşkilatına müraciət edən ata Danimarkada da elçilik açacağını deyib. Jeremiah Heaton kral olduğu üçün qızının da şahzadə olması gerçəkləşib. Hollivudun məşhur animasiya studiyası "Valt Dizney" ata və qızın bu maraqlı nağılı haqda cizgi film çəkəcəyini açıqlayıb.





## Diri-diri dəfn etdi, yemək üçün qayıda bilmədi

Rusiyada yaşayan Natalya Pasternak adlı qadın meşədə qanlar içində canlı-canlı dəfn edilmiş halda tapılıb. Lakin qadını dəfn edən bir insan deyil, ayı imiş. İki uşaq anası olan 55 yaşlı qadın meşəyə getdiyi zaman həyatının ən böyük qorxusunu yaşayıb. Bir ayının hücumuna məruz qalan Pasternak ciddi yaralar aldığı üçün hərəkət edə bilməyib. Ayı qadını daha sonra yemək məqsədilə basdırıb. Qadının meşədən qayıtmadığını başa düşən bir yaxını onu axtarmaq üçün meşəyə getdiyi zaman qadını qanlar içində üzərinə torpaq və yarpaqlar örtülmüş halda tapıb. Qadını öldürməyi planlaşdıran 4 yaşlı dişi ayı isə öldürülüb.





QOÇ - Sağlıq durumunuzla əlaqədar bəzi kiçik problemlərinizi gözlənilsə də, özünüzə diqqət yetirməklə bu kimi mənfi fəsadları aradan qaldıra bilərsiniz. Çalışın ki, gün ərzində ağır fiziki işlərə girişməyəsiniz.


BUĞA - Qarşılıqlı münasibətlərdə səxavətli olmağınız çox işlərdə əlinizdən tutacaq. Hansısa şəxsi probleminizi qabartmaqdansa, daha bəşəri ideyalarla məşğul olun. Nəzərə alın ki, bu, sizə hədsiz savab qazandıra bilər.


ƏKİZLƏR - Pulla bağlı çətinliklərinizin qabarmasından narahat olmayın. Çünki yaxın günlərdə bu istiqamətdə uğurlarınız artacaq. Konkret olaraq bu günsə yalnız görəcəyiniz işləri dəqiqləşdirməlisiniz.


XƏRÇƏNG - Birgə gəzintilərə çıxmaq, əylənceli məkanlarda olmaq üçün əlverişli tarixdir. Buna əməl etməklə sürprizlərlə rastlaşacaqsınız. Günortadan sonra maraqlı situasiyaların iştirakçısına çevriləcəksiniz.


ŞİR - Məhəbbət müstəvisində irəliləyişlərə nail olmağınızı bildirən ulduzlar əsas gücünüzü sevgiyə yönəltməyi məsləhət görür. Dardüşüncəli insanlara əhəmiyyətsiz yanaşın. Gələcəyə ümidlə baxın.


QIZ - Səmimi olsanız, ailə-sevgi münasibətlərində vəziyyət tamamilə xeyrinizə cərəyan edəcək. Kənar təsirlərə aludə olmayın. Köməyə ehtiyac duyan yaxınlarınıza sədaqətliliyinizi göstərin.


TƏRƏZİ - Nahar fasiləsinə qədər hansısa ciddi işlərə girişməyin. Əks təqdirdə xoşagəlməz situasiyalarla rastlaşacaqsınız. Sonrakı saatlarda isə nüfuzlu şəxslərlə görüşləriniz sizə səmərə verəcək.


ƏQRƏB - Büdcənizdə müəyyən artım gözlənilsə də, uzaq yola çıxmaq, riskli hərəkətlər etmək, yeni işlərə başlamaq məsləhət görülmür. Bu səbəbdən yaxşı olar ki, boş vaxtınızı ev şəraitində keçirəsiniz.


OXATAN - Astroloji göstəricilər qənaətbəxş bir gün yaşayacağınızı proqnozlaşdırır. Qarşılıqlı münasibətlərdə yaranmış müsbət çalarlar ovqatınızı xeyli yüksəldəcək. Yeni xəbər eşidəcəyiniz də mümkündür.


OĞLAQ - Fəaliyyət müstəvisində həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Odur ki, özünüzü qalmaqallara istiqamətləndirməyin. Saat 16-dan sonra şəxsi işlərinizdə dönüş yarana bilər.


SUTÖKƏN - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimi bütünlüklə səhhətinizin müdafiəsinə həsr edəsiniz. Hər bir məqamda əsəblərinizi qorumalı, dedi-qoduya fikir verməməlisiniz.


BALIQLAR - Şəxsi büdcənizi artırmaq baxımından düşərli gün olsa da, ümumi əhvalınızda gərginlik mümkündür. Lakin bu amil işgüzar sövdələşmələrdə və qərarlar qəbul etməkdə sizə mane olmayacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 20 ildir stansiyada gözləyir

Tayvanlı kişi 20 il öncə sevdiyi qadınla qatar stansiyasında görüşmək üçün sözləşib. Lakin sevgilisi görüşə gəlməyib. Ah Ji adlı kişi həmin gündən bəri sevgilisini gözləməkdən vaz keçməyib. Bəziləri onun küçədə yaşadığını və əqli problemləri olduğunu düşünür. O isə hər gün stansiyanın qapısında durur və sevgilisini gözləyir. Ah Jinin yaxınları onu burdan uzaqlaşdırmağa çalışsalar da, buna nail ola bilməyiblər. Şəhər rəhbərliyi Ah Ji üçün yemək tərtib edib, yeni paltar alıb və ondan stansiyaya getməməsini xahiş edib. Lakin kişi razılaşmayıb və sevgilisini gözləməkdən vaz keçməyib.



**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300